# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

15 noyabr 2025-ci il, şənbə
№ 208 (7035)
Qiyməti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!



## Xalq bir yumruq kimi birləşmişdi...

Bax səh. 4



## Bakı-Daşkənd: dinamizm, müttəfiqlik və ardıcıllıq

Bax səh. 3

## Kiyevdən Bakıya zəng...

Bax səh. 2



## “Yeni Azərbaycan Partiyasının müasir dövlətçilik tariximizdə yeri və rolu”

Bax səh. 4



## Azərbaycan Rusiyaya nota verdi!

Səfir Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb

Bax səh. 2

## “Yaşıl Enerji Sənaye Parkı” yaradılır

Bax səh. 2

### Birgə layihələr uğurla icra olunur

Bax səh. 2

### Azərbaycan-Özbəkistan: Strateji müttəfiqliyin yeni mərhələsi

Bax səh. 3

### AXC-Müsavat hakimiyyətinin cinayətləri: vurulan yaralar, xəyanətlər...

Bax səh. 4

### Şəffaflıq naminə

Büdcə xərclərinin funksional təsnifatı genişləndirilib

Bax səh. 5

### Fiziki aktivlik və psixoloji sağlamlıq...

Bax səh. 6



## Ermənistanı agentlər idarə edib?

Bax səh. 6

### Tikanı özünə batan gül

Bax səh. 7

# Kiyevdən Bakıya zəng...

## Diplomatik nümayəndəliklərə qarşı hücumlar qəbuledilməzdir



Noyabrın 14-də Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Volodimir Zelenski Rusiyanın raket zərbəsi nəticəsində Azərbaycanın Ukraynadakı səfirliyinin inzibati binasının növbəti dəfə raket zərbəsinə məruz qalmasını qınayıb və bu hadisə ilə bağlı ciddi narahatlığını bildirib.

Dövlətimizin başçısı da öz növbəsində ölkəmizin Ukraynadakı səfirliyinin binasının növbəti dəfə raket zərbəsinə məruz qalmasını pisləyib və bununla əlaqədar ciddi narahatlığını ifadə edib, beynəlxalq hüququn norma və prinsiplərinə əsasən diplomatik nümayəndəliklərə qarşı bu cür hücumların qəbuledilməz olduğunu vurğulayıb.

Telefon söhbəti zamanı Volodimir Zelenski ölkəmizin Ukraynaya humanitar dəstəyinə görə təşəkkürünü bildirib.

Dövlət başçıları, həmçinin ikitərəfli əlaqələrə dair fikir mübadiləsi aparıblar.

# İlham Əliyev: Nəqliyyat və kommunikasiya xətlərinin təhlükəsizliyi sahəsində əməkdaşlığımızın effektivliyi qardaş dövlətlərin iqtisadi inkişafının və uzunmüddətli sabitliyinin zəmanətidir

## "Beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunmasında xüsusi xidmət orqanlarının rolu" mövzusunda beynəlxalq konfransın iştirakçılarına

Hörmətli konfrans iştirakçıları,

Sizi "Beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunmasında xüsusi xidmət orqanlarının rolu" mövzusunda beynəlxalq konfransın açılışı münasibətilə Xankəndidə səmimi-qəlbdən salamlayıram.

Qardaş ölkələri təmsil edən xüsusi xidmət orqanlarının nümayəndələrinin bu tədbirdə iştirakı təhlükəsizlik və əməkdaşlığın gücləndirilməsinə olan ümumi baxışımızın bariz göstəricisidir.

Bugünkü tədbirin ölkələrimiz və bütövlükdə region üçün strateji əhəmiyyət daşıyan beynəlxalq nəqliyyat xətlərinin təhlükəsizliyinin təmin olunması mövzusuna həsr olunması təsadüfi deyil. Son zamanlar dünyanın müxtəlif bölgələrində müşahidə olunan qarşıdurmalar beynəlxalq və regional təhlükəsizliyi ciddi şəkildə təhdid edən müxtəlif çağırışların artmasına səbəb olur. Bu mənada ölkələrimizin ərazisindən keçən, Avropa ilə Asiyanı birləşdirən geniş nəqliyyat şəbəkəsinin mühafizə olunması üçün xüsusi xidmət və təhlükəsizlik orqanları arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi böyük önəm daşıyır.

Bu gün bizim ölkələr Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin inkişaf etdirilməsində aparıcı rola malikdirlər. Azərbaycan müasir dəmir və avtomobil yolları, eləcə də hava və dəniz limanları infrastrukturuna böyük sərmayələr yatırır. Biz bu nəqliyyat və kommunikasiya xətlərini təkcə iqtisadi rifah mənbəyi kimi deyil, eyni zamanda Türk dövlətlərinin siyasi, mədəni, təhlükəsizlik və müdafiə sahələrində daha sıx inteqrasiyası üçün vacib təməl kimi görürük.

Zəngəzur dəhlizinin açılması ölkələrimiz arasında birbaşa və maneəsiz əlaqələrin qurulmasında mühüm rol oynayacaqdır. Bu layihənin reallaşması nəticəsində yükdaşıma həcminin çoxalması regionun rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artıracaqdır. Bununla belə, nəqliyyat qovşaqlarımızın artan rolu onları destruktiv qüvvələrin hədəfinə çevirir. Nəqliyyat və kommunikasiya xətlərimiz beynəlxalq terrorçuluqla, transmilli mütəşəkkil cinayətkarlıqla, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə, qaçaqmalçılıqla, eləcə də kritik nəqliyyat infrastrukturunun idarəetmə sistemlərinin iflicinə yönəlmiş kibertəhdidlərlə üzləşir.

Nəhəng regional layihələrin icrasına mane olmaq məqsədi daşıyan xarici müdaxilə və sabitliyi pozma cəhdləri də xüsusi qeyd edilməlidir. Məhz buna görə də xüsusi xidmət orqanları arasında qarşılıqlı əməkdaşlığın gücləndirilməsi həyati zərurətə çevrilmişdir. Əsas nəqliyyat obyektlərinə, marşrutlara və ümumiyyətlə dövlətlərimizə qarşı planlaşdırılan pozuculuq aktları barədə fasiləsiz və operativ məlumat mübadiləsinin aparılması və birgə profilaktik tədbirlərin görülməsi olduqca vacibdir.



Müvafiq kontekstdə tranzit xətlərimizdən istifadə etməyə cəhd göstərən terrorçu təşkilatların və cinayətkar qrupların destruktiv fəaliyyətinin qarşısının alınması üçün əlaqələndirilmiş əməliyyat tədbirlərinin hazırlanması və reallaşdırılması da prioritet fəaliyyət istiqamətləri sırasında yer almalıdır. Bu əməkdaşlıq kibertəhdidlərdən müdafiə, eləcə də nəqliyyat axınlarına nəzarət və monitorinq üçün qabaqcıl texnologiyaların tətbiqi sahəsində təcrübə mübadiləsini də əhatə etməlidir.

Nəqliyyat və kommunikasiya xətlərinin təhlükəsizliyi sahəsində əməkdaşlığımızın effektivliyi qardaş dövlətlərin iqtisadi inkişafının və uzunmüddətli sabitliyinin zəmanətidir. Əminəm ki, bugünkü tədbir və ən əsası xüsusi xidmət orqanlarının daimi birgə işi ölkələrimizin təhlükəsizliyi, sabitliyi və rifahı ilə bağlı ümdə məsələlərin həllinə kömək edəcək, xalqlarımızın dinc və firavan inkişafına töhfə verəcəkdir.

Bütün tədbir iştirakçılarını bir daha Qarabağda ürəkdən salamlayır, konfransın praktiki əhəmiyyətli nəticələrlə yekunlaşmasını arzulayıram!

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

# Birgə layihələr uğurla icra olunur

## Asiya İnkişaf Bankının nümayəndə heyəti İlham Əliyevin qəbulunda...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 14-də Asiya İnkişaf Bankının prezidenti Masato Kandanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Asiya İnkişaf Bankı arasında səmərəli əməkdaşlığa toxunuldu, birgə layihələrin uğurlu icrası qeyd edildi. 1999-cu ildən indiyədək Asiya İnkişaf Bankı tərəfindən nəqliyyat, su təchizatı, enerji, maliyyə, təhsil, səhiyyə və digər sahələri əhatə edən 145 kredit, qrant, investisiya və texniki yardım layihələri üzrə Azərbaycana 5,5 milyard dollar dəyərində maliyyə dəstəyinin göstərildiyi vurğulandı.

Asiya İnkişaf Bankının Azərbaycan dövləti ilə yanaşı, özəl sektorla da uğurlu əməkdaşlıq etdiyi qeyd olundu. Bu xüsusda neft-qaz, elektrik enerjisi, yol, dəmir yolu, kənd təsərrüfatı, su təchizatı, çirkab suların axıdılması və digər istiqamətlərdə icra olunan birgə layihələrə toxunuldu.

Söhbət zamanı Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlərin regionun nəqliyyat-tranzit imkanlarının genişləndirilməsi üçün də böyük imkanlar yaratdığı diqqətə çatdırıldı.

Görüşdə Mərkəzi Asiya-Azərbaycan-Avropa marşrutu üzrə bağlantıların önəmi qeyd edildi. Həmçinin ölkəmizlə bank arasında yeni layihələrə toxunuldu, bu xüsusda dəmir yolu, metro şəbəkəsinin genişləndirilməsi və su təchizatı ilə bağlı əməkdaşlıq məsələləri müzakirə olundu.



# Azərbaycan - ABŞ münasibətlərində yeni mərhələ

## Tolerantlığın ünvanı olan respublikamızda Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsi fəaliyyət göstərəcək

Dünyada dövlətlər və cəmiyyətlər səviyyəsində multikulturalizmə qarşı kəskin hücumlar edildiyi, milli-dini-irqi zəmində dözümsüzlüyün artdığı indiki dövrdə Azərbaycan fərqli yanaşmalar sərgiləyir. Belə ki, respublikamız hər zaman öz nümunəsindən çıxış etməklə tolerantlıq, birgəyaşayış modelini təşviq edib və bu gün də bu mövqeyinə sadiqdir.

Bunun növbəti təsdiqi olaraq noyabrın 13-də Prezident İlham Əliyev ABŞ-ın İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsinin nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısının "On İki Həvari Kvorumu"nun üzvü Deyvid Bednarın, Yetmişlər Komitəsinin üzvü və Avropa Mərkəzi Ərazi İdarəsinin birinci məsləhətçisi Cek Gerardın, Stirlinq Fondunun prezidenti və İdarə Heyətinin sədri Mayls Hansenin və Yetmişlər Komitəsinin Mərkəzi Avropa və Avrasiya üzrə kvorumunun üzvü Pol Pikardın daxil olduğu nümayəndə heyəti ilə görüşdə genişlənən Azərbaycan - ABŞ münasibətlərinə diqqət çəkilib və ölkəmizdəki nümunəvi tolerantlıq mühitindən məmnunluq ifadə olunub.



### Vaşinqtonda əldə olunan razılaşmalar tarixi əhəmiyyət daşıyır

Cari il avqustun 8-də dünya tarixi anlara şahidlik etdi. Ağ Evdə D.Trampın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında təxminən otuz il davam edən münaqişədə yeni bir səhifə açılmış oldu - iki ölkə xarici işlər nazirləri tərəfindən liderlərin iştirakı ilə yekun sülh sazişi paraflandı. Bu, 44 günlük müharibədən sonra Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlayan sülhyaratma prosesində tarixi bir nailiyyətdir. İndiyədək buna çoxlu cəhdlər edilmişdi. Xatırlayaq ki, Ağ Evdə baş tutan son görüşədək müxtəlif formatlarda danışıqlar aparılıb. Bir vaxtlar Moskva, Brüssel, Vaşinqton formatları aktiv fazada idi. Lakin Vaşinqton formatı Bayden administrasiyasının Azərbaycana münasibətdə qərəzli mövqe tutmasına görə bir neçə görüşdən sonra yarımçıq dayandırıldı. Brüssel formatı çərçivəsində xüsusilə də Fransanın Ermənistanın tərəfini saxlaması açıq-aşkar idi və buna görə də iflas qaçılmaz oldu. Həmçinin Moskva formatı da səmərəsizliyi ilə yadda qaldı. Belə ki, bu formatda fəaliyyətlər məsul şəxslərin görüşmələrindən və bəyanatlar səsləndirmələrindən uzağa getmədi.

Beləliklə, Vaşinqton razılaşmaları ilə Cənubi Qafqaza sülh gəlir. İki ölkənin əməkdaşlıq dönəminə başlayacağına böyük ümidlər yaranıb. Sülh sazişinin dünyanın bir nömrəli ofisində - oval kabinetdə D.Trampın şahidliyi ilə imzalanması böyük məsuliyyət yaradır. Qəbulda qonaqlar ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması istiqamətində Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırıblar. Təbriklərə görə təşəkkürünü bildirən dövlətimizin başçısı Vaşinqtonda Azərbaycan və Ermənistan arasında əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyərək, onların regionun inkişafı üçün mühüm rol oynadığını vurğulayıb.

### Azərbaycan - ABŞ əməkdaşlığının genişlənməsini hədəfləyən mühüm sənədlər

Qəbulda Donald Trampın yenidən Prezident seçilməsindən sonra Azərbaycan-ABŞ əlaqələrinin yeni mərhələyə keçdiyini bildirən Prezident İlham Əliyev bu ilin avqustunda Vaşinqtona səfəri çərçivəsində ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı mühüm sənədlərin imzalandığını xatırladıb. Təəssüf ki, bundan əvvəlki Bayden administrasiyası dönəmində ABŞ - Azərbaycan münasibətlərində, necə deyərlər, geridönüş baş vermişdi. Belə ki, Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan əlaqələrinin girovuna çevrilmişdi. Bizim Amerika Birləşmiş Ştatları ilə əvvəlki dövrdə əldə edilmiş nailiyyətlər və potensial demək olar ki, dondurulmuş vəziyyətə salınmışdı.

Ağ Evdə Bayden administrasiyası əvəzləndikdən sonra isə vəziyyət dəyişib. Rəsmi Bakı Vaşinqtonla münasibətləri qarşılıqlı maraqlar əsasında inkişaf etdirməkdə maraqlıdır. ABŞ-ın yeni administrasiyasının Azərbaycana və şəxsən Prezident İlham Əliyevə xoş niyyətli münasibəti də açıq-aşkar sezilir. Ağ Evin yeni administrasiyasının ökəmizə səmimi münasibətinin davamı olaraq Prezident İlham Əliyevin ABŞ-a işgüzar səfəri çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb. Bu sənədin böyük əhəmiyyəti var. Sözügedən sənəddə gələcək əməkdaşlıq istiqamətləri açıq-aydın təsbit edilib. Bu sırada aşağıdakıları sadalamaq mümkündür:

-Qarşılıqlı sərmayə qoyuluşu,

- Nəqliyyat, bağlantılar, təhlükəsizlik, süni intellect sahəsində əməkdaşlıq,

-Müdafiə sənayesi və müdafiə sahələri üzrə qarşılıqlı fəaliyyətlər və s.

Bütün bunlar onu deməyə əsas verir ki, imzalanan sənəd qarşıda geniş perspektivlər açır. Artıq Prezident İlham Əliyevin göstərişi əsasında Azərbaycan tərəfini təmsil edəcək tərkib müəyyən olunub. Respublikamız bir sıra təkliflər irəli sürmək niyyətindədir və artıq müzakirələrə start verilib.

Məlum olduğu kimi, Amerika Birləşmiş Ştatları Azərbaycanın uzun illərdən bəri enerji sahəsində sadiq tərəfdaşıdır. Bu ölkənin şirkətləri Azərbaycanın Xəzərdəki zəngin karbohidrogen yataqlarının işlənilməsi üzrə imzalanan layihələrdə iştirak edirlər. Bu sahədə xoş ənənələrə əsaslanan və sağlam təməllər üzərində qurulmuş əməkdaşlıq hazırda da uğurla davam edir. Azərbaycan özünün enerji strategiyası, eləcə də regionda sabitliyə və inkişafa xidmət edən nəhəng infrastruktur layihələrinin həyata keçməsinə ABŞ-ın göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndir.

Azərbaycan Prezideninin ABŞ-a işgüzar səfəri çərçivəsində isə dövlətimizin başçısının və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanıb. Yaxşı haldır ki, Azərbaycanla ABŞ arasında ötən əsrin doxsanıncı illərindən başlayan enerji əməkdaşlığı perspektivdə də davam etdiriləcək.

Eləcə də Vaşinqton razılaşmalarına uyğun olaraq "Azadlığa Dəstək Aktı"na bədnam 907-ci düzəliş tarixdə qalıb. Konqres tərəfindən 1992-ci ildə qəbul edilmiş "Azadlığa Dəstək Aktı" qanunu sosialist sistemin dağılmasından sonra öz müstəqilliyini elan etmiş dövlətlərə ABŞ tərəfindən yardımın göstərilməsini ehtiva edib. Lakin 1992-ci ilin oktyabr ayında ABŞ-da erməni lobbisinin təsiri altında qəbul olunan "Azadlığa dəstək Aktına 907-ci düzəliş" adlı sənəd Vaşinqton-Bakı münasibətlərinin inkişafında mənfi rol oynayıb. Sonrakı dövrlərdə ABŞ prezidentləri 907-ci düzəlişin icrasını müvvəqqəti dayandırsa da, Bayden-Blinken administrasiyası bu ədalətsiz qərarı yenidən qüvvəyə mindirərək, Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışıb.

Artıq bu bədnam sənədin icrası yeni administrasiya tərəfindən dayandırılıb. Prezident İlham Əliyev ilə amerikalı həmkarı Donald Tramp arasında qurulmuş uğurlu əməkdaşlıq 33 il əvvəl Azərbaycanın məruz qaldığı ədalətsizliyə son qoymuş olacaq. İndi Azərbaycan güclü dövlətdir. İqtisadiyyatını inkişaf etdirib, ölkəmizin beynəlxalq maliyyə qurumlarının dəstəyinə heç bir ehtiyacı yoxdur, öz problemlərimizi özümüz həll edirik. Belə bir vəziyyətdə 907-ci düzəlişin dondurulmasına və "Azadlığa dəstək aktı" çərçivəsində respublikamıza ABŞ-dan yardım ünvanlanmasına bir o qədər də böyük ehtiyac yoxdur. Belə bir şəraitdə 907-ci düzəlişin dayandırılması rəmzi məna daşıyır.

### Tolerantlıq Azərbaycanda həyat tərzidir

Görüşdə Azərbaycanda mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi ilə bağlı dövlət səviyyəsində həyata keçirilən işlərdən söhbət açılıb, bu istiqamətdə ölkəmizdə bir çox mühüm beynəlxalq tədbirin təşkil edildiyi vurğulanıb.

Tolerantlığın xalqımızın həyat tərzi olduğu bildirilib, tarixən ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin bir ailə kimi dinc və sülh şəraitində yaşadığı qeyd edilib.

Həqiqətən də, Azərbaycan çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olmasını özünün böyük sərvəti sayır. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Respublikamızda bütün dinlərə aid icmalar sərbəst şəkildə fəaliyyət göstərirlər. Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərib. Əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycanın üstünlüyü ondan ibarətdir ki, tarixi ənənələr bu gün də qorunur. Çoxmədəniyyətlilik respublikamızda heç bir halda ayırıcı xətlər yaratmır. Əksinə, biz bununla qürur duyuruq.

Azərbaycan dünyaya birgəyaşayışla, dözümlülüklə bağlı daim çağırışlar edir, təşəbbüslər irəli sürür. Azərbaycanın ənənəvi olaraq ev sahibliyi etdiyi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mədəniyyət vasitəsilə sülhün təşviqinə yönələn beynəlxalq təşəbbüsləri dəstəkləyən mühüm platformaya çevrilib. Beynəlxalq səviyyədə artıq Azərbaycan brendi kimi tanınan "Bakı prosesi" respublikamızın mədəniyyətlərarası dialoqun güclənməsinə verdiyi mühüm töhfələrdən biridir. Dünya gündəliyinə daxil olan bu təşəbbüs respublikamızın tarixdən gələn zəngin multikultural ənənələrinə, xoş məramına əsaslanır və qlobal miqyasda mədəniyyətlərarası dialoqa, birgəyaşayışa töhfələr vermək məqsədi daşıyır. Respublikamız "Bakı prosesi"nin bir hissəsi olaraq mədəniyyətlərarası dialoq forumlarına mütəmadi qaydada ev sahibliyi edir. Xatırladaq ki, Prezident İlham Əliyev tərəfindən 2008-ci ildə irəli sürülmüş mədəniyyətlərarası dialoqa dair "Bakı prosesi"nin tərkib hissəsi sayılan Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu ilk dəfə Bakıda 2011-ci ildə, sonra isə 2013-cü, 2015-ci, 2017-ci, 2019-cu və 2024-cü illərdə təşkil olunub. Ötən müddət ərzində forumun coğrafiyası çox genişlənib, tədbirə qoşulan ölkələrin və qurumların sayı xeyli artıb. Forumlara ümumilikdə 10 mindən çox iştirakçı - hökumət rəsmiləri, beynəlxalq təşkilat və institutlardan rəhbər və nümayəndələr qatılıblar. Eyni zamanda, forumlar çərçivəsində 200-dən artıq müxtəlif formatlı və miqyaslı tədbirlər, plenar və panel müzakirələr, təqdimatlar təşkil olunub.

Görüşdə qonaqlar Azərbaycan hökumətinin Amerika Birləşmiş Ştatlarının İsa Məsihin Sonuncu Gün Müqəddəsləri Kilsəsini rəsmi qeydiyyata almasına görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirərək, bu kilsənin Bakı ofisinin açılışında iştirak edəcəklərini deyiblər və bunu ölkəmizdə bütün dinlərin nümayəndələrinə göstərilən qayğının təcəssümü kimi qiymətləndiriblər.

***Mübariz FEYİZLİ***

# Bakı-Daşkənd: dinamizm, müttəfiqlik və ardıcıllıq

## İki ölkə arasında hərtərəfli əlaqələr yüksələn xətlə inkişaf edir

Son illərdə daha da ön plana çıxmış, siyasi-iqtisadi proseslərdə ən mühüm regional oyunçulardan biri kimi xarakterizə olunan Azərbaycan mühüm əməkdaşlıq platformaları formalaşdırıb. Xüsusilə, türkdilli ölkələrlə əlaqələrin inkişafı diqqəti cəlb edir - istər ikitərəfli, istərsə də TDT çərçivəsində qurulan möhkəm münasibətlər demək olar ki, bütün sahələri əhatə etməkdədir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsində də bildirib ki, Azərbaycan və Mərkəzi Asiya ölkələri artan strateji əhəmiyyətə malik vahid tarixi, mədəni, coğrafi və geosiyasi məkanı formalaşdırır. İlk baxışda Azərbaycanı Mərkəzi Asiya ölkələrindən fiziki olaraq ayırsa da, Xəzər dənizi, əslində, mühüm birləşdirici amildir. Bu gün Xəzər dənizi, sadəcə, coğrafi anlayış deyil, o, hər şeydən əvvəl xalqlarımızın strateji birliyinin, iqtisadi potensialının və tarixi əməkdaşlığının rəmzidir: "Ölkələrimizi təkcə coğrafiya deyil, həm də tarixi-mədəni əlaqələr, ortaq dini və mənəvi dəyərlər, adət-ənənələr birləşdirir."

### 7-ci görüşə dəvət...

İkitərəfli və çoxtərəfli əlaqələrin inkişafına xüsusi önəm verən Azərbaycan dost, qardaş ölkələrlə münasibətlərin çoxşaxəli inkişafını prioritet sayır. Məsələn, Mərkəzi Asiya dövlətləri, o cümlədən Özbəkistan ilə əlaqələr buna bariz misaldır. Azərbaycan ilə Mərkəzi Asiya regionu dövlətləri son illərdə vahid orqanizm kimi çıxış edir - istər siyasi, istərsə də iqtisadi sferada koordinasiyalı münasibətlər formalaşdırırlar. Belə əməkdaşlıq platformalarından biri də Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşüdür. Qeyd edək ki, indiyə qədər bu formatda 6 görüş keçirilib. 2018-ci ilin martından başlayaraq keçirilən bu görüşlərdə Azərbaycan 2023-cü ildən iştirak edir. Dövlət başçısı müsahibəsində bildirib ki, budəfəki iştirak Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət görüşündə sayca üçüncü iştirakımız olacaq. "Mən dəvətə, həmçinin Azərbaycanın bu mühüm tədbirdə iştirakına göstərilən dəstəyə görə bütün həmkarlarıma, ilk növbədə isə qardaşım Şavkat Mirziyoyevə səmimi təşəkkürümü bildirirəm. Azərbaycan regiondakı bütün ölkələrlə ən yüksək səviyyədə əməkdaşlığın hərtərəfli inkişafına xüsusi əhəmiyyət verir. Hesab edirəm ki, Mərkəzi Asiya ölkələri ilə Azərbaycan arasında ikitərəfli əsasda qurulan strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri, həmçinin fəal siyasi dialoqumuz və qarşılıqlı səfərlərimiz bu əməkdaşlıq formatının uğurunda mühüm rol oynayır".

Region ilə Azərbaycan arasında münasibətlər isə durmadan inkişaf edir. Qarşılıqlı əlaqələr ən yüksək səviyyədədir - statistik göstəricilər də bunu deməyə əsas verir. Belə ki, son üç ildə Mərkəzi Asiya dövlətlərinin başçıları Azərbaycana təxminən 30 səfər ediblər - Prezident İlham Əliyev isə həmin müddətdə qardaş ölkələrdə 13 dəfə səfərdə olub. Builki Məşvərət görüşünün də özündən əvvəlkiləri kimi müsbət nəticələri gözlənilir.



### Münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir

Azərbaycan qardaş dövlətlərlə əlaqələrin gücləndirilməsində maraqlıdır - bu mənada, Özbəkistanla münasibətlərə xüsusi toxunmaq lazımdır. İki dost dövlət aralarında yüksək etimad mühiti formalaşdırmağa nail olublar. Burada, heç şübhəsiz ki, liderlərin şəxsi nümunələrini, onların dostluq münasibətlərinin, müxtəlif səviyyələrdə təmasların artmasının rolunu xüsusi qeyd etmək lazımdır. Dövlət başçıları tez-tez qarşılıqlı səfərlər edirlər. Bir qayda olaraq İlham Əliyev Özbəkistanda, Şavkat Mirziyoyev isə Azərbaycanda əziz qonaq kimi qarşılanırlar. İki dövlət arasında əlaqələrin qurulmasının 30-cu ildönümü ərəfəsində münasibətlər qardaşlıq kontekstində inkişaf edir. Prezident İlham Əliyev müsahibəsində Özbəkistanın Azərbaycan üçün qardaş ölkə və etibarlı müttəfiq olduğunu bildirib: "Bu gün Azərbaycan ilə Özbəkistan arasında münasibətlər ən yüksək - müttəfiqlik səviyyəsindədir. Münasibətlərimizin inkişafına təsir edən digər, əhəmiyyəti heç də az olmayan amil Özbəkistan Prezidenti Şavkat Miromonoviç Mirziyoyev ilə aramızda yaranan şəxsi etimad və dostluq münasibətləridir".

### Vahid coğrafi məkanda yeni tərəfdaşlıq imkanları

İndiyədək iki ölkə arasında çoxvektorlu əməkdaşlığın təməlində dayanan əsas siyasi sənədlər imzalanıb - "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyanname", Prezident İlham Əliyevin ötən ilin avqust ayında Özbəkistana baş tutan səfəri çərçivəsində dövlət başçıları tərəfindən imzalanan "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə" dövlətlərarası əlaqələrə xüsusi bir ruh qazandırıb. Bu ilin iyulunda Özbəkistan liderinin növbəti dəfə respublikamıza səfəri çərçivəsində Azərbaycan-Özbəkistan Ali Dövlətlərarası Şuranın ikinci iclasının keçirilməsi, yeni sənədlərin mübadilə edilməsi ondan xəbər verir ki, hər iki tərəf strateji müttəfiqlik münasibətlərini daha da dərinləşdirməkdə maraqlıdır. Dövlət başçısı müsahibəsində qeyd edib ki, qısa müddət ərzində çox böyük işlər görülüb: "Bütün bu qarşılıqlı səfərlər Azərbaycan-Özbəkistan münasibətlərinin həm ikitərəfli əsasda, həm də Mərkəzi Asiya və Xəzər regionu da daxil olmaqla, vahid coğrafi məkanda yeni tərəfdaşlıq imkanlarının reallaşdırılması baxımından bütün sahələrdə möhkəmləndirilməsinə əhəmiyyətli təkan verib".

### Qarabağın yenidən qurulmasına yardım göstərmək təşəbbüsü göstərən ilk ölkə

Özbəkistan ilə Azərbaycan arasındakı humanitar əlaqələr də durmadan genişlənir. Vaxtilə Azərbaycan işğala məruz qalan zaman Özbəkistan ərazi bütövlüyümüzü davamlı şəkildə dəstəklədi. Torpaqlarımızın işğaldan azad edilməsinin ardından isə Qarabağda aparılan quruculuq işlərinə yaxından töhfə verdi - Füzulidə böyük özbək alimi Mirzə Uluqbəyin adını daşıyan və hazırda təxminən 600 şagirdin təhsil aldığı məktəbin tikintisi qardaşlıq münasibətlərinin ən mühüm məqamlarındandır. Prezident İlham Əliyev müsahibəsində bildirib ki, Özbəkistan Qarabağ bölgəsinin yenidən qurulmasına yardım göstərmək təşəbbüsünü irəli sürən ilk ölkə, Prezident Mirziyoyev isə dünyada ilk lider olub.

### Əlaqələrin inkişafı...

Özbəkistan -Azərbaycan münasibətlərində hər zaman ön planda saxlanan məqamlardan biri də Türk Dövlətləri təşkilatı çərçivəsində əlaqə qurulması və inkişaf etdirilməsidir. Bu mənada, Bakı-Daşkənd əlaqələri də türk birliyi formatının ən həssas və ən möhkəm münasibətlər sistemini yaradır. Dövlət başçısı bildirib ki, Azərbaycan və Özbəkistan Türk Dövlətləri Təşkilatının fəal üzvləridir və türk birliyinin möhkəmləndirilməsinə mühüm töhfələr verirlər: "Bundan əlavə, münasibətlərimiz BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, AQEM və digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir".

O ki qaldı, mədəni-regional əlaqələrin gücləndirilməsinə, bu istiqamətdə də vəziyyət ürəkaçandır - istər Azərbaycanda Özbəkistan mədəniyyət günləri, istərsə də Özbəkistanda Azərbaycan mədəniyyət günləri xoş təəssürat yaradır, sevinclə qarşılanır. Ölkələrimizin regionları arasında əməkdaşlığa xüsusi diqqət yetirilir. "Regionlararası əlaqələrin fəallaşması xalqların yaxınlaşmasına, təcrübə mübadiləsinin aparılmasına və əməkdaşlığın mədəni-humanitar gündəliyinin möhkəmləndirilməsinə kömək edir", - deyə Prezident İlham Əliyev vurğulayıb.

**P.İSMAYILOV**



# Azərbaycan-Özbəkistan: Strateji müttəfiqliyin yeni mərhələsi

Prezident İlham Əliyev Özbəkistanın Milli İnformasiya Agentliyinə (UzA) müsahibəsində Özbəkistan və Mərkəzi Asiya dövlətləri ilə Azərbaycan arasında yüksəksəviyyəli münasibətlərdən bəhs edərək əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün təşəbbüslərin davam etdirildiyini xatırladıb. Dövlətimizin başçısı həyata keçirilən iqtisadi, investisiya, nəqliyyat, logistika layihələrinin geniş bir coğrafiyada dərin əməkdaşlıq və rifah körpüsü yaratdığını vurğulayaraq bu proseslərdə Özbəkistanın davamlı səylərini yüksək qiymətləndirdi. Bəyan olunduğu kimi iki dost və qardaş ölkə arasında əlaqələrin dinamikası ən yüksək səviyyəyə çataraq strateji müttəfiqlik zirvəsinə daxil olub.

### Müttəfiqlik münasibətlərinin "Yol Xəritəsi"

Azərbaycan və Özbəkistan arasında yaxın tərəfdaşlıq münasibətlərinin son illərdə inkişafı yüksələn templə davam etməkdədir və hər iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərləri və imzalanan sənədlər, hökumət nümayəndə heyətlərinin görüşləri, biznes-forumların keçirilməsi iqtisadi hərarəti daha da dərinləşdirməkdədir. Hər iki ölkə iqtisadi platformada ortaq maraqlara xidmət edən təşəbbüslər və əməkdaşlıq formatını da əsas gündəliyə çevirib və regionda yeni yaradılan enerji-kommunikasiya, nəqliyyat xətlərində birgə təmsil olunmaq iradələrini nümayiş etdirməkdədir.

2025-ci ilin iyulunda isə Özbəkistan Prezidenti Azərbaycana dövlət səfəri etdi. Bu tarixi səfərlər zamanı onlarla mühüm sənəd, o cümlədən Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə, Müttəfiqlik münasibətləri haqqında Müqavilə, "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilənin həyata keçirilməsi üzrə 2025-2029-cu illər üçün "Yol Xəritəsi" və digər sənədlər imzalanıb. Bu sənədlər Azərbaycan-Özbəkistan münasibətlərinin yeni inkişaf çağırışları əsasında yeni istiqamətlərini müəyyən edən konseptual baza deməkdir.

### Hökumətlərarası Komissiya iqtisadi əməkdaşlığı koordinasiya edir

İqtisadi təmasların möhkəmlənməsində Hökumətlərarası Komissiyanın aktiv fəaliyyəti də xüsusi əhəmiyyət kəsb edir. Komissiya perspektivli işbirliyi istiqamətlərinin müəyyənləşərək yeni layihələrin icrasının təşviqi üçün koordinasiyaedici rol oynayır. Habelə mütəmadi olaraq keçirilən Azərbaycan-Özbəkistan Regional Forumu bu istiqamətdə əməkdaşlığın təşviqi üçün səmərəli platformadır.

Ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərindən biri şaxələndirilmiş nəqliyyat və logistika infrastrukturunun inkişafı, tranzit imkanlarının genişləndirilməsidir. Bu sahədə Orta Dəhliz Azərbaycan və Özbəkistanı Mərkəzi Asiya bölgəsində mühüm tranzit ölkə qismində çıxış etməsini təmin edir. Son illərdə Orta Dəhliz vasitəsilə ixrac imkanlarının və daşımaların artması ölkələrimiz arasında tranzit daşımaların həcmini də artırıb. 2024-cü ildə daşınmaların həcmi 1,3 milyon tonu keçib. 2025-ci ilin ilk doqquz ayında bu rəqəm təxminən bir milyon tona çatıb ki, bu da nəqliyyat mübadilələrində dinamik artımı nümayiş etdirir. Bütün bunlar Azərbaycanın qlobal nəqliyyat və logistika qovşağı kimi rolunu gücləndirir və Zəngəzur dəhlizinin açılması Mərkəzi Asiya ölkələrinə daha çox fayda gətirəcək.

Energetika sektorunda əməkdaşlığın inkişafı da prioritet istiqamət olaraq qalır. SOCAR Özbəkistana Azərbaycanın neft məhsullarını və neft-kimya məhsullarını ixrac edir. 2016-cı ildən bəri "OZLITINEFTGAZ" İnstitutunun və "SOCAR NIPI Nefteqaz"ın bazasında yaradılan "Neftegaztexnologiya" birgə müəssisəsi uğurla fəaliyyət göstərir. Özbəkistan "Azərbaycan-Mərkəzi Asiya" "yaşıl enerji" dəhlizində də fəal yer alır. Ötən il Daşkənddə keçirilən forumda "Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin qarşılıqlı əlaqəsi üzrə Əməkdaşlıq Memorandumu" imzalanıb. Memorandumun davamı kimi ilin sonunda 3 ölkə "yaşıl enerji" dəhlizinə dair saziş imzalayıb ki, bu beynəlxalq əhəmiyyətli hüquqi sənəd olmaqla, Mərkəzi Asiya-Azərbaycan-Avropa formatının təsis edilməsinin hüquqi əsasını yaradıb.

### Hədəf ticari mübadiləni 500 milyon dollara çatdırmaqdır

Azərbaycan və Özbəkistan son illərdə ikitərəfli münasibətlərin inkişafı və keyfiyyətcə yeni mərhələyə çatması üçün qarşılıqlı təmasları daha da artırmaqdadır. Ölkələr arasında ticarət, iqtisadiyyat, investisiya, nəqliyyat və digər sahələrdə mühüm layihələrin həyata keçirilməsi birgə əməkdaşlığın gündəliyini daha da genişləndirib. Dövlətimizin başçısının vurğuladığı kimi Azərbaycan ilə Özbəkistan arasında iqtisadi-ticari əməkdaşlığın hazırkı səviyyəsi və dinamikası tam məmnunluq doğurur və onun səviyyəsinin daha da artmasına kömək edir. Hər iki tərəf qarşılıqlı əməkdaşlığı genişləndirmək üçün əhəmiyyətli səylər göstərir, yeni layihələr irəli sürür və birgə təşəbbüslərin həyata keçirilməsinə xüsusi əhəmiyyət verir. Bu gün Azərbaycanda təxminən 120 Özbəkistan investisiyalı kommersiya təşkilatı qeydiyyatdan keçib və iqtisadiyyatın müxtəlif istiqamətlərində - sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat və xidmət sahələrində uğurla fəaliyyət göstərir.

Azərbaycanla Özbəkistan arasında ticarət sürətli templə inkişaf edir. Belə ki, 2024-cü ildə əmtəə dövriyyəsi 252 milyon dollar təşkil edib və 2025-ci ilin yanvar-sentyabr aylarında bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 87,5 faiz artaraq 319 milyon dollara çatıb. İmkanlar isə daha böyükdür, hədəf ticari mübadiləni 500 milyon dollara çatdırmaqdır.

### Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti birgə sərmayələri təşviq edir

İki il əvvəl fəaliyyətə başlayan Azərbaycan-Özbəkistan İnvestisiya Şirkəti iki ölkə arasında mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsi və iqtisadi əməkdaşlığın genişləndirilməsi və investisiya fəaliyyətinin fəallaşdırılmasını təşviq etməkdədir. Həmçinin, ölkələrin işgüzar dairələri arasında birbaşa əlaqələrin inkişafında vasitəşilik funksiyasını həyata keçirir, dövlət və özəl sektorun nümayəndələrini vahid platformada birləşdirərək onların qarşılıqlı sərmayə qoyuluşlarının istiqamətlərini müəyyənləşdirir. Fondun nizamnamə kapitalı layihələrə investisiya qoyulduqca artırılacaq və birgə müəssisə statusunda istehsal, emal, ixracyönümlü sahələrə daha çox dəstək verəcək. Əsas prioritet idxalı əvəz edən və yüksək texnologiyalı məhsul istehsalının təşviqidir ki, bu da hər iki ölkənin strateji maraqlarına uyğundur, çünki yerli istehsal qarşılıqlı mübadilə olunmaqla iki ölkə arasında ticarət dövriyyəsinin artırılmasına da töhfə verəcək və başqa dövlətlərdən mal asılılığını azaldacaq.

Şirkətin strateji fəaliyyət istiqamətləri olduqca genişdir və sərmayələrin təşviqi üçün bütün maliyyə, investisiya, kapital fondları ilə birgə əməkdaşlıq missiyanı yerinə yetirmək niyyətindədir. Belə ki, Azərbaycan və Özbəkistan ərazisində, investisiya qoyulan layihələrdə aparıcı sənaye tərəfdaşının olması şərtilə, qarşılıqlı maraq doğuran mövcud və yeni yaradılmış təsərrüfat subyektlərinin nizamnamə kapitalında minoritar payların və səhm paketlərinin, həmçinin həmin subyektlərin istiqrazlarının və digər qiymətli kağızlarının əldə edilməsi, kreditlərin ayrılması və qiymətli kağızların buraxılışı da nəzərdə tutulur ki, bu da şirkətə mühüm maliyyə institutu funksiyasının səlahiyyətlərinin verilməsi deməkdir.

**ELBRUS CƏFƏRLİ**



# Azərbaycan Rusiyaya nota verdi!

## Səfir Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb

Noyabrın 14-də Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı noyabrın 14-də təqribən gecə saat 1:00-da Ukraynanın paytaxtı Kiyev şəhərinə raket və dron hücumları nəticəsində "İsgəndər" tipli raketlərdən birinin səfirliyin ərazisinə düşməsi ilə bağlı kəskin etiraz bildirilib və səfirə müvafiq nota təqdim edilib.

Son partlayış nəticəsində səfirliyin ərazisinin hasarının bir hissəsinin tamamilə dağıldığı, konstruksiyaların, xidməti avtomobillərin, inzibati binanın və səfirliyin konsulluq şöbəsinin zədələndiyi, həmçinin diplomatik nümayəndəliyin ərazisinə ciddi ziyan vurulduğu, xoşbəxtlikdən bu zərbənin insan tələfatına səbəb olmadığı qarşı tərəfə bildirilib.

Beynəlxalq hüququn norma və prinsiplərinə zidd olan bu kimi raket hücumlarının əvvəllər də baş verdiyi xatırladılıb. Xüsusilə 2022-ci il martın 10-da Azərbaycanın Xarkovdakı fəxri konsulluğunun binasına avizərbə nəticəsində inzibati binanın ciddi dağıntılara məruz qaldığı və xidməti avtomobilin yararsız hala düşdüyü qeyd edilib.

Bununla yanaşı, 2024-cü il yanvarın 2-də Rusiya tərəfindən "Kinjal" raketi ilə həyata keçirilən hava zərbəsi nəticəsində səfirliyin inzibati binasından təqribən 35 addım məsafədə diametri təxminən 3 metr olan krater yarandığı və yer səthindən 8 metr dərinlikdə detonasiya baş vermədiyi üçün partlamamış sursat aşkar edildiyi bildirilib.

2025-ci il avqustun 28-də isə Azərbaycanın Ukraynadakı səfirliyinə təxminən 50 metr məsafədə endirilmiş hava zərbəsi nəticəsində səfirliyin inzibati binasının və konsulluq şöbəsinin, səfirin iqamətgahının zədələndiyi, həmçinin diplomatik nümayəndəliyin ərazisinə ciddi ziyan dəydiyi diqqətə çatdırılıb.

Eyni zamanda, 2025-ci il avqustun 8-18-də Odessa vilayətində SOCAR şirkətinin neft bazasına dron hücumları edildiyi, nəticədə işçilərin xəsarət aldığı, infrastruktura böyük zərər vurulduğu xatırlanıb. Bütün bu faktların raket hücumlarının məqsədli olması barədə suallar yaratdığı vurğulanıb. Eyni zamanda, bütün bu faktlara dair Rusiya tərəfinə əvvəllər rəsmi notalarla məlumat verildiyi, həmçinin Ukraynadakı diplomatik təmsilçiliklərimizin yerləşdiyi binaların koordinatlarının hələ 2022-ci il aprelində Rusiya tərəfinə təqdim edildiyi, koordinatların Rusiya Müdafiə Nazirliyi tərəfindən nəzərə alınacağının bildirildiyi xatırlanıb.

Görüşdə diplomatik təmsilçiliklərimizə bu kimi hücumların qəbuledilməz olduğu diqqətə çatdırılıb, Rusiya tərəfindən məsələ üzrə müvafiq araşdırma aparılması və ətraflı izahat verilməsi tələb edilib.

# “Yeni Azərbaycan Partiyasının müasir dövlətçilik tariximizdə yeri və rolu”

“Konstitusiya və Suverenlik İli” çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 33-cü ildönümünə həsr olunmuş “Yeni Azərbaycan Partiyasının müasir dövlətçilik tariximizdə yeri və rolu” adlı tədbir keçirilib.

Tədbirdən öncə Konservatoriyanın inzibati binasında müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq Ulu Öndərin əziz xatirəsi ehtiramla yad edilib.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin, həmçinin bir neçə gün öncə Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus hərbi yük təyyarəsinin qəzaya uğraması nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla anılıb. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaş-zadə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 33 il bundan əvvəl - 1992-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyasının yaradılmasının  müasir dövlətçilik tariximizdə əlamətdar hadisə olduğunu qeyd edib. Rektor Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının ölkəmizi daim irəliyə apararaq və önəmli nailiyyətlərə imza ataraq ümumxalq etimadı qazandığını vurğulayıb.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Ümummilli Lider Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının müstəqillik yolunda inamla irəliləyən Azərbaycanın hərtərəfli inkişafına mühüm töhfələr verdiyini söyləyib. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi nailiyyətləri, 2020-ci ildə qazandığı şanlı Zəfəri və 2023-cü ildə ölkəmizin suverenliyinin tam bərpa olunduğunu diqqətə çatdıraraq vurğulayıb ki, qazanılan uğurların əsasında dövlət başçısının milli maraqlara əsaslanan məqsədyönlü siyasəti və xalq-iqtidar birliyi dayanır.

Sonra çıxış edənlər ölkəmizdə mədəniyyət sahəsində görülən işlər və qazanılan uğurlardan, həmçinin ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının mənəvi dəyərlərə və dövlət mənafelərinə əsaslanan fəaliyyətindən bəhs ediblər.



Tədbirdə Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş Konservatoriya əməkdaşlarına üzvlük vəsiqələri təqdim edilib.

Daha sonra Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

Tədbirin sonunda bədii hissə təqdim olunub, xatirə şəkli çəkdirilib.







# AXC-Müsavat hakimiyyətinin cinayətləri: vurulan yaralar, xəyanətlər...

## Zəfərin və sabitliyin bünövrəsindəki 30 il



Azərbaycan bu gün öz gücünə, qüdrətinə və nüfuzuna görə dünyanın sayılıb-seçilən dövlətlərindən biridir. Ölkəmiz artıq regional inkişafın strateji xəritəsini təkcə özü üçün deyil, bütövlükdə Cənubi Qafqaz üçün müəyyənləşdirir. Bu, sadəcə iqtisadi və siyasi müstəvidə irəliləyiş deyil, həm də tarixi məsuliyyətin dərkidir - Azərbaycan regionun gələcəyini formalaşdıran əsas güc mərkəzinə çevrilib.

Əgər bu gün Azərbaycan beynəlxalq münasibətlərdə etibarlı tərəfdaş, enerji təhlükəsizliyinin təminatçısı, sabitliyin və inkişafın aparıcı dayağı kimi tanınırsa, bunun arxasında 30 illik ardıcıl, strateji və qətiyyətli siyasət dayanır. 1990-cı illərin əvvəlində dağılmaqda olan dövlətin təməllərini qorumaq, onu yenidən qurmaq, inkişaf yoluna çıxarmaq və nəhayət, bütövlüyə qovuşdurmaq asan deyildi.

Bu 30 illik yol siyasi uzaqgörənliyin, xalq iradəsinin, dövlətçilik düşüncəsinin təntənəsidir. Azərbaycan artıq özünün postmüharibə mərhələsindədir, amma bu mərhələyə gəlişin arxasında nə qədər ağır itkilər, gərgin illər, çətin qərarlar dayandığını unutmamalıyıq.

**Tarixin sərt imtahanı: itkilərdən nəticəyə doğru...**

Bu günün rakursundan baxanda, Azərbaycanın əldə etdikləri bəziləri üçün sadəcə “təbii prosesin” nəticəsi kimi görünə bilər. Lakin ölkəmizin son 35 illik tarixi göstərir ki, bu nəticələr heç də asan əldə edilməyib. 1990-1993-cü ilin birinci yarısı aralığı Azərbaycan üçün faciəli bir dövr idi. Dövlətin dayaqları sarsılmış, ordusu nizamsız, iqtisadiyyatı iflic vəziyyətdə idi.

O dövrdə baş verənlər bizi az qala 30 il geriyə atdı. Dövlətçiliyin məhv olmaq təhlükəsi, siyasi xaos, bölgələrdə qarşıdurmalar, rəhbərsizlik - bütün bunlar yalnız həmin zaman üçün yaralar və ya problemlər yaratmadı - həmin dövrdə baş verənlər özündən sonra illərlə aradan qaldırılması çətin olacaq problemlər miras qoydu. Bu, gələcək onilliklərin də taleyini müəyyən edən faciəli səhvlər idi.

Azərbaycanın diplomatik müstəvidə səriştəsizliyi, hərbi məğlubiyyətlər, torpaq itkiləri - bütün bunların arxasında idarəçilik böhranı dayanırdı. Xalq bir tərəfdən işğalın ağrısını yaşayır, digər tərəfdən öz içindən çıxan siyasi qüvvələrin məsuliyyətsizliyini seyr edirdi. Ancaq bütün bu dağıntılardan sonra bir yol qaldı: xilas yolu, dövlətin xilası üçün xalqın yenidən birləşməsi. Məhz o zaman xalqın çağırışı ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı yeni dövrün başlanğıcını qoydu.

**Xəyanətin izi: AXC-Müsavat dövrünün faciəli səhifələri, cinayətləri**

1990-cı illərin əvvəlində, cəmisi 1-2 il ərzində baş verənlər Azərbaycan tarixində ən acı səhifələrdən biridir. 1990-1993-cü illərin birinci yarısında ölkə faktiki olaraq idarəolunmaz hala gəlmişdi. AXC-Müsavat cütlüyünün şəxsi ambisiyaları, hakimiyyət hərisliyi dövlət maraqlarını kölgədə qoymuşdu. Hərb meydanında baş verən məğlubiyyətlər, Şuşa, Laçın, Kəlbəcərin itirilməsi sadəcə hərbi səhv deyildi - bu, dövlətə, xalqa, tarixə qarşı xəyanət idi.

Ölkə daxilindəki qarşıdurmalar, ordunun tərkibində parçalanma, rəhbərliyin səriştəsizliyi və məsuliyyətsiz qərarları nəticəsində Azərbaycan torpaqlarının mühüm bir hissəsini itirdi. O dövrdə hakimiyyət uğrunda mübarizə aparanlar, əslində, dövlətin təməlini dağıdırdılar.

AXC - Müsavat hakimiyyəti dövründə xalqın inamı sarsıldı, ordu ruhdan düşdü, iqtisadiyyat çökdü. Dövlət aparatında anarxiya hökm sürürdü. Onlar milli ideyanı siyasi alver predmetinə çevirdilər. Xalq o illərin ağrısını bu gün də xatırlayır. Həmin xəyanətin nəticəsində minlərlə şəhid verdik, yüz minlərlə insan doğma yurdundan didərgin düşdü. Amma bu faciələr eyni zamanda Azərbaycanın gələcək dirçəlişinin əsas motivinə çevrildi: xalq bir daha belə xəyanəti qəbul etməyəcəyinə and içdi.

**Heydər Əliyev yolu: bu günə inam, gələcəyə ümid...**

1993-cü ilin iyununda xalqın təkidi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın xilası oldu. Ulu Öndərin müəyyənləşdirdiyi strateji siyasi kurs qısa zamanda dövlətçiliyin bərpasını, sabitliyin təminini və inkişafın başlanmasını mümkün etdi.

Bu kursun əsas dayaqları - güclü dövlət, sabit iqtisadiyyat, peşəkar ordu və milli həmrəylik idi. 1994-cü ildə imzalanan “Əsrin müqaviləsi” ilə Azərbaycan iqtisadi müstəqilliyini bərpa etdi, enerji strategiyasını qurdu, beynəlxalq əməkdaşlıq sisteminə inteqrasiya olundu.

Heydər Əliyev dövlətçilik məktəbinin əsas prinsipi sabitlik üzərində qurulmuşdu. Bu sabitlik sonradan Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişafa, modernləşməyə və qələbəyə çevrildi.

Prezident İlham Əliyev bu siyasəti yeni dövrün tələblərinə uyğunlaşdırdı. Ordunun yenilənməsi, texnoloji və hərbi modernizasiya, siyasi sistemin çevikləşdirilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi nəticəsində Azərbaycan 2020-ci ildə tarixi Qələbə qazandı. Qarabağ azaddır, Azərbaycan bütöv və suverendir. Bu, 30 illik ardıcıl siyasətin, uzaqgörən liderliyin və xalqın birliyinin nəticəsidir.

**Qüdrətin nümayişi: Gücün və sabitliyin yeni mərhələsi**

2025-ci ilin 8 noyabrında Bakıda keçirilən Vətən müharibəsində Qələbənin 5-ci ildönümünə həsr olunmuş hərbi parad Azərbaycan dövlətçiliyinin qüdrət rəmzinə çevrildi. Bu parad təkcə hərbi gücün nümayişi deyildi - bu, 30 illik mübarizənin yekunu, dövlətin öz sabitliyinə və gələcəyinə inamının təntənəsi idi. Prezident İlham Əliyev bu gün elə bir siyasi mühit formalaşdırıb ki, Azərbaycan regionda əsas sabitləşdirici amildir. Cənubi Qafqazın gələcəyi artıq Azərbaycanla bağlıdır. Ölkəmiz enerji, nəqliyyat və təhlükəsizlik sistemlərinin mərkəzinə çevrilib.

Dost və qardaş ölkələr bu gün Azərbaycanın yanında dayanır. Türkiyə ilə qardaşlıq daha da dərinləşib, Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq strateji səviyyəyə qalxıb, Avropa ilə tərəfdaşlıq qarşılıqlı faydaya əsaslanır.

Bütün bu uğurlar fonunda, təəssüf ki, hələ də keçmişin səhvlərini etiraf etməyənlər, o dövrün xəyanətini unudanlar var. Onlar bu gün də ölkənin nüfuzuna kölgə salmaq, Azərbaycanı beynəlxalq miqyasda gözdən salmaq üçün cəhd göstərirlər. Amma hər şey boşunadır - Azərbaycan artıq başqa səviyyədədir. Dövlətin dayaqları möhkəmdir, xalqın liderinə inamı böyükdür.

**Zamanın hökmü: Qələbə, inkişaf və əmin gələcək**

Son 30 ilin salnaməsi göstərdi ki, Azərbaycan xalqı dövlətinə sahib çıxanda onu heç kim sarsıda bilməz. Biz məğlubiyyətlərdən güc, xəyanətlərdən dərs, sınaqlardan təcrübə aldıq.

Bu gün Azərbaycan regionun sabitlik dayağı, iqtisadi lokomotivi, beynəlxalq əməkdaşlığın etibarlı tərəfdaşıdır. Qələbə ruhu, sabitlik və inkişaf bir-birini tamamlayan dəyərlərdir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qarşıdakı onilliklərdə də yeni zirvələrə yüksələcək, müasir çağırışlara cavab verəcək və milli maraqlarını daim müdafiə edəcək.

Ən əsası - Azərbaycan xalqı artıq bilir ki, onun gələcəyi əmin əllərindədir. Biz AXC-Müsavat siyasətbazlarının günahı və cinayəti ucbatından 30 ili itirdik - bu gün isə yenidən doğulan, suveren dövlətçiliyin tarixini yaradırıq.

***P.İSMAYILOV***

# Xalq bir yumruq kimi birləşmişdi...

## 17 noyabr - Milli Dirçəliş Günü böyük təntənə və qürur hissi ilə qeyd edilir



Öz taleyinin sahibi olması, müstəqil dövlətini qurması Azərbaycan xalqının ən böyük uğurudur. Lakin müstəqilliyə çatanadək xalqımız bir sıra çətinliklərdən keçib.

1988-ci il noyabrın 17-də müstəqillik tariximizin önəmli bir səhifəsi yazılıb. Həmin gün indiki Azadlıq meydanında keçirilən izdihamlı mitinq müstəqillik uğrunda mübarizənin başlanğıcı olub. Bu mübarizə 1991-ci ildə Azərbaycanın XX yüzillikdə ikinci dəfə müstəqilliyini bəyan etməsi ilə nəticələnib. Hər il ölkəmizdə 17 noyabr - Milli Dirçəliş Günü böyük təntənə və qürur hissi ilə qeyd olunur.

**Heydər Əliyevin yaratdığı möhkəm zəmin**

Müstəqil dövlətin ayaqda durması üçün bir sıra şərtlər təmin edilməli, o cümlədən də iqtisadi və ideoloji zəmin yaradılmalıdır. Azərbaycan üçün belə fundamental əsasları xalqımızın müdrik oğlu, böyük siyasətçi Heydər Əliyev yaradıb. Onun respublikamıza rəhbərliyi iki fərqli ideoloji formasiyaya təsadüf edir. Onlardan biri sərt qadağaların, milli məhdudiyyətlərin hökm sürdüyü keçmiş sovet dönəmi, digəri isə müstəqilliyimizin ilk illəridir. Heydər Əliyevin müdrikliyi, uzaqgörənliyi onda idi ki, O, hər iki dönəmdə Azərbaycanın müstəqilliyi naminə böyük işlər görməyi bacarmışdır. Birinci mərhələdə Heydər Əliyev keçmiş sovet dönəminin sərt qadağalarına baxmayaraq, xalqımızın özünüdərk hissinin güclənməsi üçün məqsədyönlü fəaliyyət həyata keçiririb. O, 1969-1982-ci illərdə respublikaya rəhbərlik etdiyi dövrdə SSRİ-nin ən nüfuzlu ali təhsil müəssisələrində 18 minədək azərbaycanlı gəncin yüksək ixtisaslı mütəxəssislər kimi hazırlanmasına nail olub. Həmin kadrlar sonradan müstəqil Azərbaycanın idarə olunmasında fəal iştirak edəcəkdilər. Heydər Əliyev keçmiş ittifaqdakı nüfuzundan istifadə edərək bir sıra iqtisadi layihələrin məhz respublikamızda reallaşdırılmasını təmin edib. Bunlar isə gələcək müstəqil Azərbaycan üçün güclü iqtisadi dayaqlar idi.

Böyük Heydər Əliyevin Azərbaycanın sabahı naminə misilsiz fəaliyyəti bütün mühüm istiqamətləri əhatə edib. Bu sırada Onun milli mədəniyyətə, ədəbiyyata, Azərbaycan dilinə böyük qayğısını xüsusi qeyd etmək lazımdır. Uzaqgörən siyasətçi Heydər Əliyevin səpdiyi toxumlar ötən əsrin səksəninci illərinin sonlarından etibarən cücərməyə başladı. Onun zamanında məqsədyönlü şəkildə yaratdığı zəngin irs sonralar müstəqil Azərbaycanın iqtisadi, mədəni və ideoloji əsaslarına çevrildi.

İş elə gətirdi ki, sonradan Azərbaycanın 1991-ci ildə qazandığı müstəqilliyinin qorunması missiyasını da Heydər Əliyev yerinə yetirdi. 1993-cü ilin yayında müstəqilliyimizin əldən getməsi təhlükəsi tam real idi. Belə çətin şəraitdə xalqın təkidli tələbi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıdan Heydər Əliyev atdığı qətiyyətli addımlarla müstəqilliyimizi qorumağa və  hadisələri müsbət məcraya yönəltməyə nail oldu.

**Bütün Azərbaycanın ürəyi Azadlıq meydanında döyünürdü...**

Sərt qadağalarla, süni təbliğatla idarə olunan keçmiş ittifaqın nə vaxtsa süqutu labüd idi. Onilliklər boyunca gizli gedən bu proses ötən əsrin sonlarına doğru müəyyən formalarda açıq şəkildə təzahür etməyə başladı. Milli ideyaları əxz edən, özünəinam hissi artan Azərbaycan xalqı bəhs olunan dövrdə böyük bir imperiyada başlayan proseslərin aktiv iştirakçıları sırasında yer alırdı. Azərbaycanda milli-azadlıq hərəkatı Ermənistanın respublikamıza qarşı ərazi iddiaları fonunda açıq müstəviyə keçdi. 1988-ci ilin əvvəlindən etibarən Ermənistanın Azərbaycana qarşı təcavüzü başlandı. Moskvanın, xüsusən də SSRİ-nin o dövrdəki rəhbəri M.Qorbaçovun buna biganə münasibətini görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovdular. Ermənilər həmçinin Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törətdilər. Onlar tarixi torpaqlarımız olan Dağlıq Qarabağı Azərbaycandan qoparıb  Ermənistana  birləşdirilməsini tələb edirdilər.

Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxdı. 1988-ci il noyabrın 17-də Bakının əsas meydanı sayılan indiki Azadlıq meydanında keçmiş sovet hakimiyyətinin xalqımıza qarşı apardığı siyasətə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin izdihamlı mitinqi başlandı. Mitinq iştirakçıları respublikamıza qarşı ərazi iddiaları irəli sürən Ermənistanla iqtisadi əlaqələrin kəsilməsini, Topxanada görülən işlər barədə ətraflı məlumat verilməsini, Ağdam şəhərində qadağa saatının ləğv edilməsini, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində partiya və sovet orqanlarının buraxılmasını, orada Azərbaycanın hüquqi və siyasi hakimiyyətinin bərpa olunmasını və digər tələbləri irəli sürürdülər. Bütün xalq bir yumruq kimi birləşmişdi. Bu, əsl xalq, milli azadlıq hərəkatı idi. Respublikanın, bütün Azərbaycanın ürəyi Azadlıq meydanında döyünürdü. Həmin gün haqqında danışan Heydər Əliyev deyib ki, xalqın qanında yaşayan azadlıq istəyinin, müstəqillik arzusunun qabağını heç bir qüvvə, hətta ən güclü sel belə kəsə bilməz.

Noyabrın 17-də başlayan izdihamlı mitinqlər günlərlə gecə və gündüz davam etdi. Dekabrın əvvəllərində keçmiş sovet qoşunları ümumxalq mitinqini dağıtmağa nail olsalar da, sonradan xalqımızın müstəqillik uğrunda mübarizəsi dönməz bir məcraya yonəldi.

**Tarixi qələbələrimiz müstəqil Azərbaycanın ən böyük uğurlarıdır**

44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığımız möhtəşəm qələbələr müstəqillik yolunda nail olduğumuz ən böyük uğurlarımızdır. Vətən müharibəsində qazanılan böyük Qələbə sayəsində Azərbaycan ərazi bütövlüyünü hərbi-siyasi yolla bərpa etdi. 2023-cü il sentyabrın 19-da isə Ordumuz separatçıların yuva saldıqları ərazilərimizdə lokal xarakterli antiterror tədbirləri keçirdi və cəmi 23 saat ərzində onu uğurla tamamladı.

Artıq Azərbaycan xalqı Milli Dirçəliş Gününü böyük qürur hissi ilə ölkənin bütün ərazisində qeyd edir. Respublikamızda Milli Dirçəliş Gününün yüksək səviyyədə qeyd olunmasına dövlət səviyyəsində böyük diqqət göstərilir. Təsadüfi deyildir ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva hər il Milli Dirçəliş Günü ilə bağlı özünün sosial şəbəkə hesabında paylaşımlar edir ki, bu da onun müstəqilliyimizə verdiyi böyük dəyərin ifadəsidir.

***Mübariz ABDULLAYEV***



# Şəffaflıq naminə

## Büdcə xərclərinin funksional təsnifatı genişləndirilib

Nazirlər Kabineti “Vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” 11 oktyabr 2018-ci il tarixli qərarında dəyişiklik edib. Dəyişikliyə əsasən, balıqçılıq və balıq ovu ilə bağlı xərclər, eləcə də Prezidentin Protokol Xidmətinin xərcləri büdcə xərclərinin funksional təsnifatına əlavə edilib. Büdcə sənədinin “Balıqçılıq və balıq ovu” köməkçi bölməsinə balıqçılıq su obyektlərində həyata keçirilən fəaliyyət növləri, balıqçılıqla bağlı xidmətlərə rəhbərlik, balıq və digər su bioresurslarının mühafizəsi, artırılması, yetişdirilməsi, bərpası və səmərəli istifadəsi, balıq və digər su bioresurslarının ovlanması fəaliyyətinə nəzarət və onların tənzimlənməsi, bu sahədə məlumatların yayılması üzrə xidmətlər və idarə edilməsi, balıqçılıqla bağlı layihələrin hazırlanması və bu qəbildən olan digər xərclər daxildir.

### Maliyyə resurslarının səmərəli idarə olunması

Qeyd edək ki, büdcə təsnifatı dövlət büdcəsində gəlir və xərclərin, habelə kredit və borc əməliyyatlarının vahid və sistemli şəkildə qruplaşdırılması, kodlaşdırılması və qeydiyyat sistemidir. Büdcə təsnifatı maliyyə resurslarının məqsədli, səmərəli və effektiv idarə olunmasına imkan verir, dövlət büdcəsi üzərində tam nəzarət və analitik təhlil üçün əsas yaradır. Onun köməyi ilə dövlətin bütün maliyyə axınları şəffaf, idarə olunur, hər bir gəlir, xərc və öhdəlik təsnifat kodları ilə ayrılır, onların təyinatı, mənbəyi və funksiyası aydın şəkildə müəyyənləşdirilir. Bu baxımdan maliyyə siyasətinin uğurla həyata keçirilməsində və dövlətin maliyyə resurslarını düzgün idarə etməsində vahid büdcə təsnifatı mühüm əhəmiyyət daşıyır.

Ölkəmizdə büdcə təsnifatı əsas etibarilə “Büdcə sistemi haqqında” qanun və Nazirlər Kabinetinin təsdiq etdiyi müvafiq normativ sənədlərlə tənzimlənir. Bu sənədlər təsnifatın vahid, dəyişməz və rəsmi əsaslara uyğun qurulmasını təmin edir. Büdcə təsnifatı dövlət maliyyə nizam-intizamının vacib komponenti olduğundan illik yenilənir və təkmilləşdirilir. Son illərdə Azərbaycanda həyata keçirilən büdcə siyasətinə əsasən, fiskal siyasətin təkmilləşdirilməsi, dövlət maliyyəsi, mühasibat uçotu, dövlət xəzinədarlığı və dövlət maliyyə nəzarəti və dövlət büdcəsi xərclərinin optimallaşdırılması tədbirləri çərçivəsində daha təkmil və müasir yanaşmalar tətbiq olunur. Bu islahatlar həm də vahid büdcə təsnifatı üzrə tədbirləri əhatə etməkdədir.

Ortamüddətli Xərclər Çərçivəsi (OMXÇ) və nəticə əsaslı büdcə mexanizminin tətbiqi islahatlarına uyğun olaraq 2025-ci ilin və 2026-cı ilin büdcə sənədlərində təhsil, ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı bölmələri üzrə funksional təsnifatlar üzrə risklər təhlil edilib və onların qarşısının alınması (mitiqasiyası) tədbirləri əks olunub. Bu təsnifat maliyyə axınlarının iqtisadi mahiyyətinin aydınlaşdırılmasına kömək etməklə xərclərin şəffaflıq göstəricilərini əks etdirir.

### Büdcə xərclərinin DİM ilə uyğunluğu

Vahid büdcə təsnifatı həm də Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) nail olunması baxımından dövlətin maliyyə baxışlarını əks etdirən strateji addımlardan biridir. Ötən dövr ərzində Azərbaycan DİM istiqamətində ölkə miqyasında bir sıra mühüm irəliləyişlər əldə edib, 2024-cü ildə BMT-yə DİM-in icrasına dair 4-cü Könüllü Milli Hesabatı təqdim edən beş ölkədən biri olub. Eyni zamanda, 2025-ci il üzrə son dərc edilmiş Dayanıqlı İnkişaf Hesabatına əsasən, Azərbaycan 72,9 balla 167 ölkə arasında 64-cü yerdə qərarlaşıb. Ölkə üzrə prioritetləşdirilmiş DİM-lərlə bağlı hədəflərin sayı 88-dən 96-ya, indikatorların sayı isə 119-dan 129-a qədər artırılıb ki, bu da milli səviyyədə daha geniş monitorinq çərçivəsinin formalaşdığını göstərir.

DİM-lərlə bağlı həyata keçirilən tədbirlər kontekstində OMXÇ-də nəzərdə tutulan addımlardan biri büdcə xərclərinin “Təhsil”, “Kənd təsərrüfatı” və “Ətraf mühitin mühafizəsi” sektorları üzrə büdcə sifarişləri və icra göstəricilərinə dair məlumatlarının hazırlanmasıdır. Həmin strategiya üzrə tədbirlərin büdcə xərclərində funksional təsnifat üzrə göstəricilərinin əhəmiyyətli hissəsi DİM-lərlə əlaqələndirilir. Belə ki, “Təhsil” sektoru üzrə 2026-cı il üçün proqnozlaşdırılmış 5 milyard 15,9 milyon manat xərcin 4 milyard 953,8 milyon manatı “keyfiyyətli təhsil” bölməsi üzrə DİM-lə birbaşa əlaqəsi təmin olunub, 62,1 milyon manat məbləğ isə müxtəlif sektorlar üzrə insan kapitalının inkişafı və peşəkar fəaliyyətin stimullaşdırılması tədbirlərinə aid edilib.

### Nəticə əsaslı büdcə mexanizminin tətbiqi

Nəticə əsaslı büdcə mexanizminin tətbiq olunduğu “Sosial müdafiə və sosial təminat” sektoru üzrə 2026-cı il üzrə proqnozlaşdırılmış 4 milyard 578,8 milyon manat məbləğ bütünlüklə, “Yoxsulluğa son”, “Layiqli əmək və iqtisadi artım” və “Bərabərsizliyin azaldılması” DİM-lərlə birbaşa əlaqəliliyi də uzlaşdırılıb. “Kənd təsərrüfatı” sektoru üzrə 2026-cı il üçün proqnozlaşdırılmış 1 milyard 226,5 milyon manatın 89,4 faizi, yəni 1 milyard 095,9 milyon manatı “Aclığa son”, “Yoxsulluğa son”, “Təmiz su və sanitariya”, “Layiqli əmək və iqtisadi artım” və “Dəniz ekosisteminin mühafizəsi” də DİM-lərlə birbaşa əlaqələndirilib. Eləcə də “Ətraf mühitin mühafizəsi” sektoru üzrə 415,8 milyon manat məbləğin 377,3 milyon manatı müxtəlif DİM-lərlə birbaşa əlaqəli şəkildə uzlaşdırılıb.

2026-cı il üzrə” Kənd təsərrüfatı” və “Ətraf mühitin mühafizəsi” sektorlarının tədbirləri üzrə iqlim dəyişikliyi ilə əlaqəli 1 milyard 356,7 milyon manat məbləğin 1 milyard 335,5 manatı adaptasiya tədbirləri, 21,2 milyon manatı isə mitiqasiya tədbirləri üçün proqnozlaşdırılıb. Həmçinin, həmin sektorlar üzrə iqlim dəyişikliyi ilə əlaqəli xərclərin 1 milyard 306,3 milyon manatı qarışıq xərclər və 50,4 milyon manatı isə xalis “yaşıl xərclərə” aid edilib. Bütün bunlar vahid büdcə təsnifatı ilə funksional xərclərin tam açıqlığını əks etdirməklə büdcə məlumatları üzrə şəffaflığın gücləndirilməsinə xidmət edir.

Beləliklə, NK-nın “Vahid büdcə təsnifatının təsdiq edilməsi barədə” müvafiq qərarında dəyişikliklərin edilməsi və balıqçılıq sahəsi üzrə xərclərin, eləcə də Prezidentin Protokol Xidmətinin xərclərinin büdcə xərclərinin funksional təsnifatına əlavə edilməsi büdcədə funksional təsnifatın əhatəsinin daha da genişlənməsinə səbəb olmaqla, şəffaflıq göstəricilərinin miqyasını da artırmış olacaq.

*E.CƏFƏRLİ*

# “Yaşıl Enerji Sənaye Parkı” yaradılır

## “China Datang Corporation Ltd.” ölkəmizdə sərmayə fəallığını artırmaq niyyətindədir

Dünyada “ağıllı texnologiyalar” və innovasiyalar üzrə mövqeyini gücləndirən Çinin tanınmış texnologiya şirkətləri Azərbaycanda yeni investisiya layihələri həyata keçirməyi planlaşdırır. Çinin rəqəmsal texnologiyalar sahəsində ixtisaslaşmış nəhəng korporasiyalarından biri olan “China Datang Corporation Ltd” ölkəmizdə “yaşıl iqtisadiyyat”ın müxtəlif sahələrində çalışmaq niyyətini açıqlayıb. Prezident İlham Əliyevin noyabrın 12-də Çinin “China Datang Corporation Ltd.” şirkətinin Direktorlar Şurasının sədri Lü Cünlə görüşündə “yaşıl enerji” və “yaşıl sənaye parkı” layihələri ilə bağlı fikir mübadiləsi aparılıb. Lü Cün bərpa olunan enerji sahələrində yeni layihələrin qiymətləndirilərək sərmayə qoyuluşu imkanlarının təmin ediləcəyini vurğulayıb.

“China Datang Corporation Ltd.” şirkətinin sədri ilə iqtisadiyyat naziri Mikayıl Cabbarov arasında keçirilən görüşdə texnoloji innovasiyaların tətbiqi, enerjiyə keçiddə birgə fəaliyyət və “Yaşıl Enerji Sənaye Parkı” layihəsinin həyata keçirilməsi, lokallaşdırma və texnologiya transferi, kapital qoyuluşu məsələlərinə toxunulub. Qeyd edək ki, cari il sentyabrın 22-23-də Bakıda keçirilən I Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində İqtisadi Zonaların İnkişafı Agentliyi və “China Datang” arasında “Yaşıl Enerji Sənaye Parkı”nın yaradılmasına dair anlaşma memorandumu imzalanıb. Tərəflər yaxın vaxtlarda layihənin texniki-iqtisadi əsaslandırma sənədini tamamladıqdan sonra parkın inşasına başlayacaq.

### Azərbaycanın hədəflərinə uyğun

“China Datang Corporation Ltd.” şirkəti bir çox regionda bərpaolunan enerji güclərinin istehsalı, emalı və inteqrasiyası, külək enerjisi layihələrinin texnoloji təchizatı, enerji avadanlıqlarının tədarükü, “ağıllı şəhər” və “ağıllı kənd” layihələrinin texnoloji təchizatının təmin olunması və digər istiqamətlərdə təmsil olunmaqdadır. Şirkət qlobal bazarlarda rəqəmsal texnologiyalar üzrə liderlərdən biri kimi fiberoptik yaşıl kanalların çəkilişində də əsas təchizatçılardandır. Şirkət müxtəlif sektorlarda, xüsusilə də sənaye sahələrində karbon qazının idarə edilməsi və emissiyasının azaldılmasında rol oynayan müasir “ağıllı texnologiya”ların tətbiqi üzrə nüfuz qazanıb. Asiya və Avropanın bir çox regionlarında şirkətin təmsilçiliyi sayəsində sənaye və tikintidə ekoloji mühitlə bağlı layihələrdə uğurlar əldə olunub. Eləcə də elektrik enerjisinin planlaşdırılması və mühəndislik institutunun yaradılması sahəsində bu şirkətin təcrübəsi böyükdür. Bu baxımdan “China Datang” şirkətinin təcrübəsindən ölkəmizdə də istifadə edilməsi məqsədəuyğun hesab edilir.

Şirkət Azərbaycanda icra edəcəyi “Yaşıl Enerji Sənaye Parkı” layihəsi bərpa olunan enerji və ekoloji texnologiyaların inkişafında mühüm hadisə kimi qiymətləndirilə bilər. Belə ki, “Yaşıl Enerji Sənaye Parkı” iqlim dəyişikliyi ilə bağlı dövlətin hədəflərinə çatmağa, sənayenin strukturunun dekarbonizasiyaya keçidinə uyğunlaşmasına səbəb olmaqla, yeni “yaşıl enerji” məhsullarının istehsalı zonasının yaradılmasını təmin edəcək. 2030-cu ilədək ölkəmizdə elektrik



enerjisində yaşıl mənbələrin payının 35 faizə çatdırılması nəzərdə tutulur. Bununla yanaşı, karbon emissiyalarının 40 faizə qədər azaldılması planlaşdırılır. Azərbaycan “yaşıl” enerji siyasətini genişləndirməklə, yalnız ənənəvi məhsulların deyil, həm də innovativ texnologiyaların ixracını təmin etməyi hədəfləyir. Bu siyasətə uyğun olaraq sənayedə “yaşıl texnologiyaların” tətbiqi sayəsində ən innovativ sənaye sektorunun formalaşması da mümkün olacaq. Yeri gəlmişkən, Çinin əsas maliyyə donoru olduğu Asiya İnkişaf Bankı da Azərbaycanda “Yaşıl sənaye” parkları sektorlarının qurulmasına maliyyə dəstəyi verməyə hazır olduğunu bəyan edib.

“China Datang Corporation Ltd.” şirkətinin ölkəmizdə digər “yaşıl layihə”lərdə də iştirakı nəzərdə tutulur ki, bu da təmiz enerjiyə keçid transformasiyasına töhfə verə bilər. Həmçinin, Azərbaycandan Avropaya “yaşıl enerji”nin ixracını nəzərdə tutan Xəzər-Qara dəniz- Avropa” yaşıl kabelinin çəkilişində Çinin adıçəkilən şirkəti investor və texnologiya təminatçısı kimi fəal rol oynaya bilər.



### Rəqəmsal iqtisadiyyat quruculuğunda Çinin töhfəsi

Azərbaycandakı əlverişli investisiya mühiti Çinin digər korporasiyalarını da sərmayə zəncirinə qoşulmağa həvəsləndirir. Bir müddət öncə ölkəmizdə olan “China Electronics Technology Group Corporation” qrupunun baş direktoru Cu Pen bildirib ki, Azərbaycanda rəqəmsal texnologiyalar sahəsində idarəetmə qabiliyyətlərinin müasirləşdirilməsi, rəqəmsal iqtisadiyyatın inkişafı, milli şəbəkə təhlükəsizliyinin təmin olunması, kibertəhlükəsizlik və data tətbiqləri sahələrində əməkdaşlığa böyük önəm verir və şirkət süni texnologiyalar sektorunda aparıcı investorlardan birinə çevrilmək niyyətindədir. Eləcə də, “China Gezhouba Group Overseas Investment” şirkəti Azərbaycanda 2 giqavatt gücündə bərpaolunan enerji layihələrinə sərmayə qoymağı planlaşdırır. Şirkət sənaye miqyaslı günəş enerjisi, quruda və dənizdə külək enerjisi istehsalı, enerji saxlama və inteqrasiya olunmuş “ağıllı enerji” sistemlərinin qurulması, “yaşıl hidrogen” istehsalına investisiya qoyuluşu proqramını açıqlayıb və yaxın vaxtlarda niyyət sənədinin imzalanması gözlənilir. Çinin “FiberHome Telecommunication Technologies Co., Ltd.” şirkəti isə müasir rəqəmsal infrastrukturların qurulmasında öz köməyini təklif edir.

Ümumilikdə, Çinin digər şirkətlərinin də ölkəmizin “yaşıl sektoru”na marağı böyükdür. Son aylarda bu ölkənin şirkətləri ilə bərpaolunan enerji, enerji saxlanıcı sistemləri və şəbəkə infrastrukturları, “ağıllı texnologiyalar”ın təchizatı, “yaşıl enerji” və rəqəmsal texnologiyalar sahəsində əməkdaşlığa dair əldə edilmiş razılıqlar yaxın perspektivdə Azərbaycanın İT və “yaşıl texnologiyalar” sektorunda Çinin böyükhəcmli sərmayə bumunun başlayacağından xəbər verir. Sərmayələrin artması isə Azərbaycanın 2030-cu ilə dair sosial-iqtisadi inkişaf prioritetlərində nəzərdə tutulan əsas hədəflərdən birinin - ölkəmizin innovasiyalar məkanına çevrilməsinin gerçəkləşməsində əhəmiyyətli rol oynayacaq.

*ELBRUS CƏFƏRLİ*

# Fiziki aktivlik və psixoloji sağlamlıq...

## Texnologiyanın uşaqlara vurduğu ziyanlar

Uşaqlar və gənclərin həm fiziki, həm də mənəvi inkişafı yalnız özləri üçün deyil, cəmiyyətin gələcəyi üçündə böyük əhəmiyyət daşıyır. Hər bir addım, hər bir irəliləyiş, gələcəyin inşasına xidmət edir. Uşaqlarda fiziki inkişaf sadəcə bədən böyüməsindən ibarət deyil. Bu, eyni zamanda uşağın sağlamlığını, hərəkət qabiliyyətini və bədəninə qarşı hiss etdiyi münasibəti formalaşdırır. Belə ki, fiziki inkişaf uşaqların özlərinə inam yaratmalarına, öz potensiallarını daha yaxşı dərk etmələrinə kömək edir.

Təəssüf ki, son illər texnologiyanın sürətli inkişafı ilə uşaqların fiziki fəaliyyəti məhdudlaşıb. Video oyunlar, sosial şəbəkələr və digər rəqəmsal vasitələr onları daha çox evə, oturaq həyata bağlayır. Fiziki aktivlik azaldıqca, yalnız bədənlərində deyil, eyni zamanda psixoloji sağlamlıqlarında da çatışmazlıqlar yaranır. Bu, həm də gənclərin sosial bacarıqlarını, özgüvənlərini və stressə qarşı dayanıqlı olmalarını zəiflədir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti üzrə hazırlanmışdır**

### Gənclər bu mərhələdə hansı maneələrlə qarşılaşır?

Sualımızı cavablandıran psixoloq Kübra Tahirova “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, məktəb təzyiqləri, sosial mediada özünü təsdiqləmə arzusu, gələcəyin qeyri-müəyyənliyi - bütün bunların hamısı gənclərin mənəvi sağlamlığını sarsıdır. Onun sözlərinə görə, bəzən bir gəncin öz yolunu tapmaqda çətinlik çəkməsi, təkcə daxili mübarizənin deyil, həm də cəmiyyətin ona qarşı olan gözləntilərinin nəticəsidir: “Bir çox hallarda onlar bir az daha fərqli olmaq istəyirlər, amma cəmiyyətin təzyiqi onları normaya uyğunlaşmağa məcbur edir”.

### Özünə inam və dayanıqlılıq

Psixoloq qeyd edib ki, texnologiya ilə çox vaxt keçirmək uşaqlarda özünə inamın zəifləməsinə də yol aça bilər: “Sosial şəbəkələrdə baş verən rəqabət, bəzən uşaqların özlərini başqaları ilə müqayisə etməsinə səbəb olur. Bu da öz növbəsində özgüvən azlığı və narahatlıq yaradır. Ekran qarşısında uzun saatlar keçirən uşaqların gündəlik həyatla bağlı daha az təcrübəsi olur və bu, onların problem həlletmə bacarıqlarını da zəiflədir. Hərəkətsizlik, həmçinin uşaqların streslə başa çıxma qabiliyyətini azaldır, çünki fiziki fəaliyyət endorfin və digər hormonların ifrazını təşviq edir, bu da uşaqlara stresi daha asanlıqla idarə etməyə kömək edir”.



### Həll yolu nədir?

Psixoloq bildirib ki, bu problemləri aradan qaldırmaq üçün bir neçə yanaşma mövcuddur: “İlk növbədə, uşaqlara fiziki fəaliyyətlə bağlı düzgün nümunələr göstərmək çox önəmlidir. Ailələr, müəllimlər və digər təhsil işçiləri uşaqların ekrana olan marağını balanslaşdıraraq, onlara idmanla məşğul olmaq, açıq havada oyunlar oynamaq və sosial fəaliyyətlərə qatılmaq üçün stimullar verməlidir.

Bundan əlavə, məktəblər və təhsil müəssisələri texnologiyanın istifadəsini düzgün şəkildə idarə etməli, uşaqlara mütəmadi olaraq fiziki fəaliyyətlə məşğul olmaq üçün vaxt ayırmalarını təşviq etməlidirlər. Şagirdlər üçün təşkil edilən idman tədbirləri və açıq hava fəaliyyətləri, həmçinin sosial bacarıqların inkişafına kömək edə bilər.

Son olaraq, valideynlər və müəllimlər uşaqların psixoloji vəziyyətini izləməli və ehtiyac olduqda peşəkar dəstək almalıdırlar. Psixoloji dəstək və inkişaf proqramları, uşaqların daha sağlam və balanslı bir həyat tərzi sürmələrinə kömək edə bilər”.

### Ruh və bədən arasında əlaqə...

Psixoloq qeyd edib ki, uşaqların və gənclərin inkişafı, təkcə fiziki və mənəvi sahələrdə deyil, həm də bu sahələrin bir-biri ilə sıx bağlı olduğu yerlərdə baş verir: “Fiziki güc və mənəvi güc birləşdikdə, sağlam və xoşbəxt bir şəxsiyyət formalaşır. Həyatın müxtəlif mərhələlərində qarşılaşdığımız çətinliklər, həm bədənin, həm də ruhun sınanması deməkdir. Əgər gənclərimizin hər iki tərəfini dəstəkləyiriksə, onlara təbəssüm, azadlıq və həyatda hərəkətetmə gücü veririk.

Gələcəyin sağlam cəmiyyətini yaratmaq üçün gəncləri anlamaq, onlara dəstək olmaq və onları daha yaxşı bir gələcək qurmağa təşviq etməliyik. Bunun üçün isə ən vacib amil sevgi və təhsil, düzgün istiqamət və sərbəstlikdir. Bizim onlara göstərəcəklərimiz, hər şeydən əvvəl bir həyat dərsi olmalıdır: Həyat qətiyyətlə hərəkət etməyi, özü olmağı və hətta ən çətin anlarda belə insan olmağı bacarmağı öyrədir”.

***Yeganə***

# Ermənistanı agentlər idarə edib?

## Paşinyan keçmiş prezidentlərə qarşı ittiham irəli sürür

Sirr deyil ki, 30 ildən artıqdır ki, sözdə müstəqillik əldə etməsinə baxmayaraq, Ermənistan “forpost” ölkə kimi dəyərləndirilib. Bu ölkəyə rəhbərlik edən şəxslər də sanki “təyinat” əsasında vəzifə daşıyıb - atılan addımlar birmənalı şəkildə həm Ermənistan dövlətinin, həm də cəmiyyətinin əleyhinə istiqamətlənib. 2020-ci ildə baş verən Vətən müharibəsindən sonra yaranan yeni situasiya isə Ermənistana həm də real dövlət kimi xarakterizə olunma imkanı qazandırıb. Azərbaycanın sülh təşəbbüslərinə pozitiv qarşılıq verməklə İrəvan bütövlükdə regional inkişafa inteqrasiya olunacaq - paralel olaraq isə özünü təcrid və “ələbaxımlıqdan” xilas edəcək. Bu mənada, revanşist müxalifətin iddiaları, qeyri-adekvat çıxışları sülhə qarşı yönəlməklə yanaşı, həm də bu dövlətin özünün gələcək varlığına təhdid formalaşdırır.

### Baş nazir: Vətəndaşlar əsəbiləşir...

Ermənistanın sülhdən başqa çıxış yolu yoxdur - əks halda, regionda sabitlik yaranmayacaq və İrəvanın da yenidən fərqli maraqların təsiri altına düşmək ehtimalı yaranacaq. Bu ölkədə gələn il keçiriləcək parlament seçkiləri öncəsi siyasi vəziyyəti qiymətləndirərkən bu amil önə çıxır. Hazırda revanşist müxalifətin bitkin “liderləri” Robert Koçaryan və Serj Sarkisyan, eləcə də onların ətrafındakı dəstə həm də məhz bu baxımdan sülhün reallaşmaması üçün səy göstərir. Ermənistan Baş naziri Nikol Paşinyan 2026-cı ilin büdcə layihəsi ilə bağlı çıxışında parlament müxalifəti ilə aparılan müzakirələrə toxunaraq dolayı yolla Rusiyanın keçmiş Qarabağ münaqişəsindən istifadə edərək Ermənistanı tələyə saldığını söyləyib. Hökumət başçısı Ermənistanın keçmiş prezidentləri Robert Koçaryan və Serj Sarkisyanın bu baxımdan Rusiyanın təsir agentləri rollarını ifa etdiklərinə də eyham vurub. “Ermənistan vətəndaşları əsəbiləşir və bizdən şikayət edirlər ki, hələ də Robert Koçaryan və Serj Sarkisyanla, onların rəhbərlik etdiyi qüvvələrə reaksiya verirsiniz. İnsanlar deyirlər ki, bəzən elə təsəvvür yaranır ki, sizin üçün çox rahat yer olduğu üçün bu söhbətlərə girirsiniz, amma real problemləri, müzakirə olunmalı məsələləri, qərarlar verilməli olan məsələləri kənara qoyursunuz”, - Paşinyan bildirib.

### Seçki “mesajı”...

Erməni baş nazir çıxışında irəli sürdüyü tezislə həm ölkə vətəndaşlarına, həm də sülh tərəfdarlarına müraciət edib. Seçqabağı marafonda fərqli manevrlərə əl ataraq özlərinin siyasi varlıqlarını sübut etməyə çalışan Koçaryan - Sarkisyan birliyi hər hansı bir “uğur” əldə edəcəyinə “inanır” - amma birmənalı faktdır ki, belə bir hal yaşanacağı təqdirdə, region yenidən konfrantasiya mərhələsinə girə bilər. Bu isə nəticə etibarı ilə Ermənistanın özü üçün mənfi tendensiya formalaşdırır. Nikol Paşinyan da çıxışında bildirib ki, real problem parlamentli idarəetmənin xüsusiyyətlərindən qaynaqlanır, əsas söhbətin tərəfləri hökumət və müxalifətdir: “Bu məsələ həll edilməlidir. Mənim təəssüratım budur ki, bu boşluq aradan qaldırılmalıdır və bunu həll etməyin yolu yaxın zamanda keçiriləcək parlament seçkilərində bu şəxslərin rəhbərlik etdiyi qüvvələrin parlamentdə olmamasıdır. Bu, həll yoludur. Onlar olduğu müddətcə bu söhbət davam edəcək. Hesab edirəm ki, vaxtı çatıb, bu məsələ həll olunmalıdır”.

### Ermənistan “tələdən” çıxıb?

Paşinyan fikirlərini kifayət qədər açıq ifadə edib - o bildirib ki, uzun müddət Ermənistan başqa bir dövlətin (Rusiya) təsiri altında olub: “2018-ci ilədək Ermənistan həmin dövlətin təsirində idi və bu şəxslər həmin dövlətin agentləri idi. İndi Ermənistan müstəqil dövlətdir, yalnız müstəqil deyil, həm də suveren iradə mərkəzinə malikdir və qərarlar qəbul edə bilir. Biz nəhayət etiraf etməliyik ki, Ermənistan necə bu təsir altında qalıb: bir alətlə - Qarabağ məsələsi ilə. Başqa səbəb yoxdur”. Nikol Paşinyan vurğulayıb ki, Ermənistan artıq bu tələdən çıxıb.

Xatırladaq ki, bir neçə gün öncə də Paşinyan “SS”-ə (Paşinyan Serj Sarkisyanı belə təqdim edir-red.) “mesaj” göndərmişdi. O bildirmişdi ki, danışıqlar tarixçəsinin 2019-cu ili də əhatə edən əsas materiallarını hazırlayıb: “Hazırda onların hamısının surəti çıxarılır, ilin sonuna qədər aralarına bir neçə publik sənədi əlavə etməklə dərc edəcəyəm”. Paşinyan Serj Sarkisyanın prezident olanda yazdığı məktubu dərc edəcəyini də vurğulamışdı: “Sənin bir məktubunu da dərc edəcəyəm, elə düşünməyəsən ki, səni hesaba almamışam. Oyananda TPL və KP-yə (Paşinyan Levon Ter-Petrosyanı və Robert Koçaryanı belə təqdim edib-red.) də xəbər edərsən”.





### Borc ilə silah alışı - məcburiyyət nədir?

Azərbaycanın sülh təşəbbüsləri Ermənistan üçün bir “nəfəslikdir”. 30 il ərzində apardığı işğal siyasəti Ermənistanı bir addım belə irəliyə aparmayıb - tam əksinə, bu dövlət beynəlxalq mühitdə işğalçı və təcavüzkar ölkə kimi tanınıb, regional inteqrasiyadan kənarda qalıb, Cənubi Qafqazda reallaşan layihələrdə iştirak edə bilməyib. Səbəb isə birdir - Qarabağın işğalı. Paşinyan etiraf edir ki, Ermənistan Qarabağı işğalda saxlamaqla ən çox özünə pislik edib. Gələcəkdə hər hansı bir diletant addım və ya avantürist xəyal, qeyri-adekvat düşüncə bu ölkənin siyasi və hərbi, iqtisadi sonunu hazırlaya bilər.

Paralel olaraq bu da faktdır ki, Ermənistanın yürütdüyü işğalçı siyasət onu iqtisadi cəhətdən də bitkin hala salıb - illərlə yığılan ianələrdən, pay və ya bəxşişlərdən formalaşan məhdud dövlət büdcəsi Ermənistanı bir addım belə irəliləməyə imkan yaratmayıb - amma məntiqlə artıq vəziyyət dəyişməlidir. Qəribə budur ki, postmüharibə dövründə Ermənistan özünün “oyunlarından” geri durmaq istəmir. Məsələn, bu ölkənin xarici borcu artaraq 8 milyard dollara çatıb. Bunun səbəbi isə yeni hakimiyyətin silah alışına “göstərdiyi diqqətdən” irəli gəlir. Bunu da Paşinyan özü etiraf edib. O qeyd edib ki, Ermənistanın xarici borcunun artmasının səbəblərindən biri silah alışları olub. “Bizə deyirlər ki, niyə borc 8 milyard dollara çatdı, bu vəsaitlə nə etmişik? Demək istəmirdim, amma deyəcəm, silah aldıq. Kredit vəsaiti hesabına? Bəli, kredit hesabına, çünki dərhal çoxlu silaha ehtiyac var idi”, - o deyib.

Ermənistanın bu addımı isə anlaşılan deyil - bir tərəfdən sülh üçün çalışdığını söyləyən bir dövlət borc ilə, kredit ilə silah əldə etməyə çalışır - bunun səbəbi nədir? Bəlkə, Ermənistan yenidən hər hansı bir fərqli fikrə düşə bilər?

Buna inanmaq çətindir. Çünki Ermənistan 2020-ci ildə “Dəmir yumruğ”un “dadını” görüb. Paşinyan başda olmaqla bu dövlətin rəhbərləri də anlayır ki, yenə də hansısa səhv bir addım onlara daha baha başa gələcək...

***SADİQ***

# Qars-İğdır-Naxçıvan dəmir yolu Azərbaycanın geoiqtisadi mövqeyini möhkəmləndirəcək

Türkiyənin şərqində Orta Dəhlizin mühüm halqasına çevriləcək Qars-İğdır-Dilucu dəmir yolu layihəsi üzrə işlər sürətlə davam etdirilir. Türkiyə Nəqliyyat və İnfrastruktur Nazirliyinin məlumatına görə, 223,6 kilometrlik ikixətli dəmir yolu layihəsinin iki böyük tikinti sahəsində - İğdır vilayətinin Suveren və Qarsdakı Diqord rayonlarında işlər nəzərdə tutulan qrafik üzrə aparılmaqdadır. Layihədə iştirak edən işçi və mühəndislərin sayı 500-ə çatıb, tikintinin pik nöqtəsində isə bu rəqəm 1500-ə qədər artırılacaq. Hazırda Araz çayı üzərindəki dəmir yolu körpüsünün "Kalyon" və "Cengiz inşaat" şirkətlərinin birgə səyləri ilə inşa edilməsi planı üzrə layihələndirmə də sürətlə həyata keçirilir.

## Bakı-Tbilisi-Qarsın davamı

Qeyd edək ki, Bakı-Tbilisi-Qars polad magistralının davamı kimi nəzərdə tutulan Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsinin təşəbbüskarı Prezident İlham Əliyevdir. Onun təklifini müsbət dəyərləndirən qardaş ölkə bu ideyanın gerçəkləşməsi üçün 2020-ci ildə "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu" imzalayıb. Həmçinin, 2021-ci ildə imzalanmış "Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin də əsas bəndlərindən biri nəqliyyat-logistika imkanlarının daha da artırılmasıdır ki, sənəddə tranzitlərin şaxələndirilməsi ilə bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, o cümlədən, Naxçıvan Muxtar Respublikasının xüsusi coğrafi vəziyyəti nəzərə alınaraq bu bölgənin mühəndis-kommunikasiya xətlərinin vahid nəqliyyat sistemlərində əlaqəndirilməsi nəzərdə tutulub.

2023-cü il sentyabrın 25-də Naxçıvanda Prezident İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nun imzalanmasından sonra isə həmin layihənin reallaşdırılması istiqamətində əsaslı hüquqi bünövrə qoyulub, tərəflər qısa müddətdə dəmir yolunun tikintisinə yönəlmiş texniki hazırlıqları və texniki-iqtisadi əsaslandırma işlərini yekunlaşdıraraq işə başlayıb.

## Qars-İğdır-Naxçıvan layihəsi Orta Dəhlizə inteqrasiya olunacaq

Uzunluğu 224 kilometr, 5 stansiyadan ibarət olacaq Qars-İğdır-Naxçıvan dəmir yolu layihə çərçivəsində 638 metrdən ibarət 10 körpü, 5 tunel, 18 kilometrlik 465 suötürücü, ümumilikdə 5,5 kilometr uzunluğunda 144 yeraltı keçid və 20 yerüstü keçid inşa ediləcək. Qarsdan Naxçıvan sərhədinə qədər yol boyunca Diqora, Tuzluc, İğdır, Aralık və Dilucu stansiyalarının açılması nəzərdə tutulub. Dəmir yolunun fasiləsiz elektrik təchizatı məqsədilə 6 böyük transformator məntəqəsi yerləşdiriləcək. Layihənin 5 il müddətində, təxminən 2029-cu ildə başa çatdırılması nəzərdə tutulsa da, iki qardaş ölkə işləri sürətləndirərək bu nəhəng kommunikasiya xəttini daha tez istifadəyə verməyə çalışır. Dəmir yolu ildə 5,5 milyon sərnişin və 15 milyon ton yükün daşınması nəzərdə tutulur. Dəmir yolunda hərəkət edəcək qatarların sürəti saatda 150-160 km gözlənilir.



## Layihənin iqtisadi-siyasi əhəmiyyəti

Azərbaycanın tarixi qələbəsindən sonra regionda yaranmış yeni reallıqlar Avrasiya bölgəsində siyasi və iqtisadi mənzərəni tamamilə müsbət istiqamətə dəyişmək fürsətləri yaradıb. Avtomobil və dəmir yollarının tikintisi, yeni dəhlizlərin yaradılması və iki böyük qitə arasında tranzit rolunu oynamaq regionun bütün dövlətləri üçün faydalıdır. Bu baxımdan regionda baş verən sürətli nəqliyyat-logistika dəyişiklikləri, Orta Dəhlizin intensiv hərəkətliliyinin artması, eləcə də Zəngəzur dəhlizinin gerçəkləşməsi istiqamətində qətiyyətli səylərin irəliləməsi fonunda Azərbaycan və Türkiyə Qars-İğdır-Naxçıvan yolunu daha tezləşdirmək istiqamətində zəruri addımlar atmaqdadır.

Hər iki ölkə öz ərazisindən keçən Şərq-Qərb-Orta beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətinin artırılması məqsədilə qarşılıqlı əməkdaşlığı möhkəmləndirmək və ən müasir nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialını daha da inkişaf etdirməyi hədəf seçib. Bu baxımdan Orta Dəhlizin ən mühüm nəqliyyat axınlarından biri kimi strateji əhəmiyyətini artıran Bakı-Tbilisi-Qars yolunun genişləndirilməsi sayəsində Qars-İğdır-Naxçıvan dəmir yolunun yaradılması daha da aktuallıq kəsb edir. Bu dəmiryolu xətti Şərq-Qərb nəqliyyat dəhlizinə inteqrasiya olunacaq. Bu isə Naxçıvan daxil olmaqla, Azərbaycan üzərindən daşınan yüklərin həcmini artıracaq.

Beləliklə, Qars-İğdır-Naxçıvan Orta Dəhlizə daxil olan digər trans-nəqliyyat layihələrinin də vacib qovşağı olmaqla təkcə Türkiyə və Naxçıvanı, Azərbaycanın bölgələrini birləşdirməyəcək, daha qlobal əhəmiyyətli tranzit kimi Avropa ilə Asiyanın ticarət körpüsünün bir hissəsini təşkil edəcək. Dəmir yolu Naxçıvandakı iş adamları üçün geniş imkanlar açır ki, istehsal olunan məhsullar daha geniş bazarlara çıxarılacaq. Nəticədə, Azərbaycanın və Naxçıvanın beynəlxalq yükdaşımalardan əldə olunan gəlirlərinin həcmi əhəmiyyətli dərəcədə artacaq.

Dəmir yolu, eyni zamanda, Türk Dövlətləri Təşkilatı (TDT) üzvlərinin ticarətdən faydalanması üçün yeni imkanlar formalaşdıracaq, onlar arasında iqtisadi-siyasi, ticari təmasların yüksəlməsi və vahid nəqliyyat ailəsinin üzvləri kimi beynəlxalq yük daşınmalarında fəal rolunun artmasına töhfə verəcək. Həmçinin, Qars-İğdır-Naxçıvan xətti Azərbaycanın beynəlxalq geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə də imkanlar yaradacaq. Bu baxımdan layihə iqtisadi faydası ilə yanaşı, ölkəmizin siyasi-beynəlxalq nüfuzunu da artması üçün uzaqgörən strateji qərarın nəticəsi hesab edilə bilər.

*E.CƏFƏRLİ*

# Tikanı özünə batan gül

## Uilyam Folknerin "Emili üçün qızılgül" hekayəsi haqqında

**əvvəli ötən saylarımızda**

Zaman ötüb dövran dəyişdikcə təzə nəsillər köhnələrin yerinə gəlir. Şagirdləri yaşa dolub Emilidən həmişəlik ayrılır, öz uşaqlarının qayğısına qalmağa gedirlər. Son şagirdin arxasınca örtülən qapı bir də heç kəsin üzünə açılmır. Şəhərdə rüsumsuz poçt xidməti yaradılanda təkcə miss Emili öz qapısına üstündə nömrə olan metal lövhə vurulmasına, poçt qutusu asılmasına razılıq vermir. Hər səhər əlində zənbil bazarlığa gedən zəncinin saçları da camaatın gözləri önündə ağarır, beli yavaş-yavaş bükülür. Hər ilin sonunda miss Emili rəsmi vergi kağızı alır, bir həftə sonra elə aldığı kimi də kağızı geri göndərir. Arabir onu alt mərtəbənin hansısa pəncərəsində görənlər olur: belə vaxtlarda lal-dinməz, tam hərəkətsiz oturan miss Emili daşdan yonulma bütü andırır, onun kimisə görüb-görmədiyi də dürüst anlaşılmır.

"Bax, o elə bu cür - dərkolunmaz, inkaredilməz büt kimi - hamımızın öyrəşib isinişdiyimiz, hamımıza məhrəm olan heyrətamiz görkəmindəcə bir nəsildən o birinə adlayırdı. İndi də budur, canını tapşırdı; neçə vaxtdı naxoşlayıb yorğan-döşəyə düşən, toz basmış alaqaranlıq otaqda xəstə canıyla əlləşən zavallı qadın gör neçə müddətdi ki, bir tək qocalıb-qartımış, əldən-dildən düşmüş xidmətçi zəncinin umuduna qalmışdı.

Əslində, onun heç xəstələndiyini də doğru-dürüst bilən bir allah bəndəsi yoxdu; biz zəncidən bir söz qoparmaq, nəsə öyrənmək ümidini çoxdan itirmiş, üstəlik bu vəziyyətlə barışmışdıq - bu məxluq bir kimsəylə kəlmə kəsmir, ömür-billah ağzını açıb dillənmirdi; çox güman, heç miss Emili ilə də danışmırdı, bəlkə elə bundandı ki, səsi pas atıb xır-xır xırıldayırdı.

Miss Emili alt mərtəbədəki otaqların birində, qoz ağacından qayırılma iri, ağır miçətkənli çarpayıda keçinmişdi; onun ağ saçlı başı uzun illər gün işığı dəyməmiş yindən sapsarı saralıb kif atan köhnə balışın arasında itib batmışdı".

***

Miss Emilinin ölüm xəbərini eşidib tələm-tələsik özünü yetirən qadınları zənci qulluqçu giriş qapısının ağzında qarşılayıb içəri buraxır, sonra özü dal qapıdan həyətə çıxıb həmişəlik qeyb olur. Emilinin əmisi qızları da özlərini yetirirlər, ertəsi gün bütün şəhər dəfnə axışır: "Miss Emilinin cənazəsi alınma güllərin əhatəsindəydi; tabutun baş tərəfinə atasının dərin fikrə qərq olmuş zərli portreti qoyulmuşdu, şəhər xanımları da cənazə ətrafında sıx dövrə vurub hüznlə xısınlaşırdılar. Evin qənşərindəki artırmada, çəmənlikdə oturan ixtiyar qocaların bəziləri səliqəylə yuyulub-ütülənmiş konfederat ordu formasındaydılar, söhbətlərindən belə məlum olurdu ki, miss Emili onların yaşıdıymış, guya cavanlıqda hələ onunla rəqs də eləmişdilər; hətta aralarında mərhuməyə xüsusi nəvaziş göstərən, sevgisini izhar eləyən də tapıldı..."

Dəfndən sonra evin ikinci mərtəbəsindəki qırx neçə ildən bəri insan ayağı dəyməmiş otağın qapısını sındırırlar:

"Sərt zərbənin təsiriylə neçə illərdən bəri yığılıb qalmış tozu ərşə qalxan otaq sanki bəylə gəlinin zifaf gecəsi üçün hazırlanmış, buna uyğun mebellə təchiz olunmuşdu. Havada qəbir üfunəti vardı. Nazik toz layı hər tərəfi basmışdı: çəhrayı abajurlu lampa, çəhrayı taxtın rəngi bozarmış qırçınları, bər-bəzək stolu, masa üzərində bir-birinə qarışmış büllur ətir şüşələri - hamısı toz içindəydi; tutqun gümüşü rəngli üzqırxan ləvazimatının üzərindəki yazılar da seçilməz olmuşdu. Elə oradaca qalstuk və yaxalıq gözə dəyirdi; onları sanki indicə çıxarıb ora qoymuşdun, amma qaldıranda yerində tozdan apaydın seçilən aypara şəkilli izləri qaldı. Stulun söykənəcəyindən isə kostyum asılmışdı; döşəmədə bir cüt kişi çəkməsi, böyründə də corablar vardı.

Kişi özü isə çarpayıda uzanmışdı.

Biz nəfəsimizi qısıb cınqırımızı da çıxarmadan xeyli müddət beləcə durub, donuq bir istehzayla qorxunc tərzdə üzümüzə diş ağardan kəlləyə tamaşaya elədik. Ölü kimisə qucaqlamış kimi uzanmışdı, lakin sevgi nəvazişlərindən daha uzunömürlü olan, bütün əyər-əskiklərə sığal çəkib tumarlayan əbədi yuxu zavallının sevgilisini ondan qoparmışdı; bir vaxtlar gecəköynəyi olmuş cındasıyla üstü örtülən qalıqları isə illərlə uyuyub qaldığı bu çarpayıya əriyib qarışmışdı.

Kişinin özü də, böyründəki balış da hamar kül qatının altında itib batmışdı.

Yalnız bu zaman biz ikinci yastığın üzərində yüngül baş izini sezdik. Kimsə irəli əyilib barmağının ucunu ehmalca balışa toxunduranda biz bu gözəgörünməz külün kəsif iyindən udquna-udquna bir az qabağa durub, bunun bozumtul rəngə çalan bir çəngə uzun qadın teli olduğunu gördük".

Folknerin "Emili sizin üçün ideal qadın obrazıdırmı?" sualına verdiyi cavabın yarısını yazının ilk abzasında sitat gətirmişdim. Cavabın qalan yarısı belədir:

"...Bu itki Emili üçün hər şeyin sonu demək idi, çünki belədə qocalıqdan, tənhalıqdan savayı zavallıya heç nə qalmırdı. Neçə ki əlində nəsə vardı, o bu "olanı" itirmək istəmirdi, var gücüylə çalışırdı nəyin bahasına olursa olsun, onu tutub saxlasın. Əlbəttə, bu, pisdir, hətta çox pisdir, amma yenə də mənim Emiliyə ürəyim yanır. Bilmirəm, belə bir qadın mənim ürəyimcə olardımı? Bəlkə olmazın əzablara, iztirablara məruz qalan, taleyin məhv elədiyi insanlar adamı qorxudan kimi belə bir qadın da məni qorxudardı..."

***

Eynən Yevgeniya Qrande kimi miss Emilinin də gələcəyə yolu bağlıdır - onun yolunu bir özgəsi yox, öz atası bağlayıb. O, atasının dəmir əlləriylə, qəzəbli qamçısıyla keşiyini çəkdiyi keçmişində yaşayır, qız o qaranlıq keçmişin girovudur. Onun şəxsi varlığının min bir çaları, həyatının rəngləri fələk kimi üstünə qanad gərmiş atasının heybətli kölgəsində solub görünməz olub. Emili gələcəyə tilov atmaqdansa keçmişin qarmağına keçib, canındakı şirəli toxumları həyat dirriyinin ləklərinə əkməkdənsə özü yenidən toxuma dönüb əzəli halına - atasının belinə qayıdıb. Bu toxum daha yararsızdır, heç vaxt cücərməyəcək...

Emilinin faciəsini Amerikanın şimalıyla cənubu arasındakı sosial-əxlaqi münaqişənin rəmzi kimi anlamaq, onun taleyini belə bir ictimai-siyasi qarşıdurma kontekstində yozmaq yarımçıq izah olar. Mənim yanaşmam kiməsə mötəbər görünməyə bilər, müəllifin özünün verdiyi izaha isə inanmamaq haqqımız yoxdur. Miss Emilinin Amerikanın cənubunu, Homer Berronun isə şimalı simvolizə elədiyi haqda oxucu sualına Folkner belə cavab verir:

**davamı növbəti sayımızda**



*F.Uğurlu*

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# ŞƏNBƏ ÜÇÜN NƏZM



Adamın gedəni ola,
Gəldiyi günü gözləyə.
Bağ-bağat sala dünyada,
Dərdiyi gülu gözləyə.

Gözləyə gözünü tutan
Tor aləmi bürüyüncə.
Gözləyə gözləyə onu,
Yaşayınca, həm ölüncə.

Adamın gedəni ola,
Çıxa qatarın yoluna.
Təyyarənin zolağına,
Sakitcə onu gözləyə.







## Unut məni

Baxışını dərməyə,
sevinməyə, gülməyə,
Durub sizə gəlməyə,
nə gücüm var, nə izim.
Çıx dənizin yoluna,
bax sağına-soluna,
Düş ayrılıq yoluna,
unut məni, əzizim.

Dumana, çənə sarıl,
yağışa məktub yolla,
Get bu əzablı yolu ən kəsə,
qısa yolla.
Ayrılıq tanır məni,
biz köhnə dostuq onla,
Qorxma, sənsiz ölmərəm,
unut məni, əzizim.

De, nağıl oldu, getdi, de,
yuxu gördüm, bitdi,
Axı bir vaxt var idi, nə oldu,
hara getdi?
Buludlarda göründü,
dumana dönüb itdi,
Var-gəl elə könlünlə,
unut məni, əzizim.

Qışda baharım qaldı,
sevməyə vaxtım dardı,
Belə sevgimi olur?
Bu nə biçimdə yardı?!
Dərd bənd-bərəni kəsib,
məni adamam sanma,
Gedib uzaqdan anma,
unut məni, əzizim.

Sabahı mənsiz açıb,
canında gəzmə məni,
Duymayım zərrə qədər
mənsizliyin kədərin.
Sevin, qurbanın olum,
sevin, unutsan məni,
Gözündən sevgini sil,
unut məni, əzizim.

## Ruhu dəli

Hər dəfə özüm üçün
Özümdən pay saxladım.
Hamı atıb gedəndə,
Tutsun əlimdən mənim.

Özümlə oxuduğum
Kitablar çox şey bilir.
İçdiyim qəhvətək tünd,
Dərdi-sərimdən mənim.

Canımı saran ağrı
İliyimə işləyir.
Yeyib, bitib, yapışıb
Quru dərimdən mənim.

Güzgü də tərslik edir,
Bu gün solğun göstərir.
Bu dünya nə istəyir,
Ruhu dəlimdən mənim?!

## Anam bilmədi

Uşaq idim, yumaq idim,
Bir sevdaya qonaq idim.
Palıd idim, qovaq idim,
Dərdimi anam bilmədi.

Yudu yağışlar arzumu,
Çəkdi qarğuşlar nazımı.
Qış etdi fələk yazımı,
Dərdimi anam bilmədi.

Deyindi, bəxtim deyindi,
Qırmızı donun geyindi,
Ömrüm tələsik, yeyindi,
Dərdimi anam bilmədi.

Zarıdım, səsim batınca,
Ağrı sinəmə batınca,
Gözümü yumub yatınca,
Dərdimi anam bilmədi.

Torpaq altında çiçəyəm,
Bu gün, sabah cücərəcəm,
Bir də dünyaya gələcəm,
Dərdimi anam bilmədi.

## Son gün

Birdən yaşamağa gücüm çatmasa,
İşdi, birdən ölsəm, incimə məndən.
Fəsillər dəyişir insan ömrütək,
Ayrı pəncərədən baxırsan hərdən.

Birdən bu tikantək batan ömrümün
Son anı yetişdi, son günü çatdı.
Hisslərim qocalıb, göz yaşım bitib,
Elə hiss edirəm, ta çataçatdı.

Mənim səhərlərə sözüm tükənib,
Bir evim olmadı qapısı sınıq.
Gözəl gül baxçalı bağım olmadı,
Qoca qovaq kimi budağım qırıq.

Kim çatdı, qopardı, getdi canımdan,
Kim getdi, geriyə gətirəmmədim.
Zəhərdir acısı ayrılıqların,
Heç cürə içəri otürəmmədim.

Üzüb dənizində ömrün, yoruldum,
Gözünə döndüyüm həyat bu imiş.
Böyüklər xırdanı, güclü zəifi,
Fillər qarışqanı dipdiri yemiş.

Canımdan qalmadı sənə bircə pay,
Son sözüm, son üzüm qalsın yadında.
Mənim də qismətim səndə gizliymiş,
Adım nişanədir sənin adında.

Birdən yaşamağa gücüm çatmasa,
İşdi, birdən ölsəm, incimə məndən.
Fəsillər dəyişir insan ömrütək,
Ayrı pəncərədən baxırsan hərdən.

## Bağçalı ev

Bağçalı evin olsun,
gül-çiçəkli, qoxulu,
Noğullu donun olsun,
bənövşəli toxulu.
İsti bir yuvan olsun,
soba yanında kətil,
Pəncərədən baxasan
göy üzünə yuxulu.

Evin damı bacalı,
həyətində bağ-bağat,
Darvazanın önündə it
dayanmış farağat,
Boy-boy ağaclar olsun,
üstü çiçəkli meyvə,
Həyətdə səhəng, çatıl,
babandan qalma heybə.

Darıxasan içində
çağlayan sevgi üçün,
Nədən o atlı oldu,
mən piyada, de, neçin?
Heçmi sevmədi məni?
Ya sevdi öz sevgisin?
İndi necə unudum
heç olmayan bir kəsi?

Bu yuvayla, ocaqla
baş edən sevgi tapıb,
Dam-bacanı suvayıb
daş edən əhdə çatıb.
Sevgidən yoğrulubdu
həyətimizdə təndir,
Sevgi nənəm təndirə
sevgiylə çörək yapıb.

Mənim niyə ruhumda
tükənib sevgim, niyə?
Kim yeyib sevgi payım,
yara çıxıb dilinə.
Kimə ötürdün Allah,
ürəyimin naləsin?
Bu hay-küyün içində
daha çıxmayır səsim.

## Dəyişib

Allah, sən pıçılda mən yazım,
Göndərdiyin bəndələrin dəyişib.
Sən də incimisən deyəsən, Allah,
Doğruların, əsillərin dəyişib.

Qış yazmısan ürəyimə yaz ömrü,
Qaralt, bir də təzə yerdən yaz, ömrü.
Bu bir anlıq, bir həsrətlik az ömrün
Çirkinləri gözəlləri dəyişib.

Bu dünyada hər nə var, yalan olub,
Bir həqiqət elə özün qalmısan.
Nə vermisən, ruhuma haram olub,
Bir tək canım, bir də sözüm
qalmışam.

Şairləri də dəyişdi zamanla,
Ha axtardım gur çıraqla, amanla,
Azıb gedib söz sərrafı dumanla,
Şeirləri, qəzəlləri dəyişib.

Bu dünyanın əzəlləri dəyişib,
Bu dünyanın gözəlləri dəyişib.

## Qəmin şəkli

Adamın gedəni ola,
Gəldiyi günü gözləyə.
Məktublar gələ uzaqdan,
Gördüyü günü gözləyə.

Gözləyə gözlərindəki,
Qəmdən şəkil çəkə-çəkə.
Gözləyə dərdi cücərdib,
Ürəyində əkə-əkə.

Uzaqlar ola uzaqlar,
Uzaqdan baxan, gəlməyən.
Bir dəfə üzünə həsrət,
Bir daha elə gülməyən.

*Aysel Fikrət*

# Böyük Qayıdışın ilk qədəmi!

## Daha 110 nəfər Ağalıya qayıtdı...




Bu gün xalqımız tarixin ən əlamətdar, möhtəşəm və qürurlu anlarını yaşayır. İllərlə həsrət qaldığımız torpaqlarımızın bütövlüyünə qovuşmuşuq, yüz minlərlə soydaşımız məcburi köçkünlük yükündən azad olub. Artıq tarixi salnamələrimizə qızıl həriflərlə həkk olunacaq daha bir möhtəşəm məqamı, Böyük Qayıdışı yaşayırıq.

İkinci Qarabağ müharibəsindən sonra bu xoşbəxtliyi ilk yaşayanlar Zəngilanın Ağalı kəndinin sakinləri oldu. Ağalıya qədəm qoyarkən müasir şəhərsalma standartlarının tətbiq olunması diqqəti çəkir. Küçələrin “ağıllı” işıqlandırılması, isti və soyuğa davamlı ekoloji evlərin inşası, günəş panellərinin quraşdırılması kimi amillər bu konsepsiyanın tərkib hissələridir. Ümumilikdə, “Ağıllı kənd” layihəsi yaşayış, istehsal, sosial xidmətlər, “ağıllı kənd təsərrüfatı” və alternativ enerji sahələri kimi komponentlər üzrə icra edilib.

## Zəngilan özünün yeni dövrünü yaşayır

İşğaldan azad olunduqdan sonra həyatın canlandığı Zəngilan rayonunun Ağalı kəndinə keçmiş məcburi köçkünlərin qayıdışının davam etməsi prosesinə şahidlik etməyimizin özü də ayrı bir xoşbəxtlikdir.



Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilana qayıdışın ikinci mərhələsi çərçivəsində neçə-neçə ailənin məcburi köçkün həyatına son qoyulub, onlar artıq bu adla vidalaşıblar. Bütün bu uğurlar, məhz müharibədən sonra dövlətimizin dərhal düzgün istiqamət götürüb quruculuq-bərpa işlərinə start verməsi oldu. 2020-ci ilin yekunlarına həsr olunan videoformatda keçirilən müşavirədə Prezident İlham Əliyev bildirmişdi ki, ənənəvi infrastruktur layihələri demək olar ki, başa çatmaq üzrədir, ona görə əsas diqqət işğaldan azad edilmiş torpaqlara yönəldilməlidir. Bütün bunlar gerçəkləşdi və Azərbaycanın prioriteti Qarabağa qayıdışdır və Qayıdışın tam olaraq icra edilməsidir. Təbii ki, təkcə Zəngilanın Ağalı kəndinə deyil, işğaldan azad olunmuş bütün şəhər və rayonlara Böyük Qayıdış həyata keçirilməkdədir. Əlbəttə, kəndlərimiz, şəhərlərimiz yenidən qurulacaq, yurd həsrəti ilə yaşayan məcburi köçkünlər doğma ellərinə dönəcəklər və o yerlərdə həyatın rəngi, ahəngi dəyişəcək. Şübhəsiz ki, Azərbaycan dövləti onların layiqli həyatını təmin edir və edəcək də.

## 41 ailənin sevinci...

Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, Ağalı kəndində ikinci mərhələ üzrə sakinlərin məskunlaşdırılması prosesi davam edir. Dünən Ağalı kəndi daha 41 ailə olmaqla, 110 nəfərə qucaq açıb.

Ağalı kəndinin ikinci mərhələsində istifadəyə veriləcək evlərin sayı 103 ədəddir. Bunlardan 55-i ikiotaqlı fərdi evlərdən, 3-ü isə üçmərtəbəli 2 bloklu “Townhouse” tipli binalardakı mənzillərdən ibarətdir. 36 ədəd birotaqlı, 12 ədəd isə ikiotaqlı mənzil inşa edilib. Kənddə bütün evlərə kommunikasiya xətləri çəkilib, yaşayış və qeyri-yaşayış binalarının hamısı qazla təmin edilib, evlərdə kombilər quraşdırılıb. Burada ümumi sahəsi 2 hektardan çox olan park salınıb.

Kəndə qədəm qoyan ailələr sevinc göz yaşları ilə öz doğma yurduna qovuşub və kənddə yaradılan gözəlliyi seyr ediblər. Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar, həmçinin torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyiblər.

*Yeganə BAYRAMOVA*

# Fəlsəfənin izində...

## Həyatın və yaxşı yaşamağın bələdçisi

İnsanların ağlına gələ bilməyən bir çox hadisələr yaşanır. Bu hadisələri həll etməyə çalışan elmlər sırasında fəlsəfənin xüsusi əhəmiyyəti var. Fəlsəfə bizi həmişə diqqətli, ehtiyatlı və tənqidi davranmağa yönəldir. Belə ki, insanlar düşünərkən inkişaf edər, yəni düşünmə əsnasında irəliləyərlər. Fəlsəfənin əsl hədəfi bir şeyi ortaya çıxarmaq deyil, insanları düşünməyə və araşdırmaya sövq etməkdir.

## Düzgün seçim etməyə şərait yaradır

Fəlsəfə terminini ilk dəfə yunan riyaziyyatçısı Pifaqor işlədib. Fəlsəfənin yunan dilindən tərcüməsi isə “müdriklik sevgisi” mənasını ifadə edir. Amma bu, çox səthi və qeyri-fəlsəfi tərifdir. Əksinə, fəlsəfənin orijinal tərifi onun praktikasında, yəni öz təcrübəsində görünür.

Fəlsəfə insan biliyinin ən qədim sahələrindən biri kimi problemlərin qoyuluşuna və həllinə yönəlmiş mənəvi fəaliyyətin xüsusi sahəsidir.

İnsan öz həyatının müəyyən anlarında seçim zərurəti qarşısında qalır və öz seçimindən asılı olaraq azadlığını reallaşdırır. Fəlsəfə insanların daha düzgün seçim etməsinə kömək etməlidir. Bu məsələnin həlli üçün fəlsəfə ən ümumi ideyaları, idealları, prinsipləri, baxışları, kateqoriyaları, təcrübə formalarını aşkara çıxarır. Eyni zamanda, davranış meyarlarını, dəyərləri müəyyənləşdirir və onları zəkanın tənqidi süzgəcindən keçirilərək yenidən qiymətləndirilməsinə kömək edir. Bir sözlə, fəlsəfə qaranlıq otaqda qara bir obyekti axtarmaq kimidir. Həqiqətən də fəlsəfə bir axtarışdır, prosesdir, fəlsəfə həmişə soruşur.



## Fəlsəfi məsləhətləşmə...

Tarixdən də məlumdur ki, qədimdə insanların gündəlik həyatını dəyərləndirmək, mövcud problemləri, sualları həll etmək, olan hadisələrin mahiyyətini açıqlamaq məhz filosofların işi olub. Nümunə üçün Platonun “Dialoqlar”ını xatırlamaq yetər. Kanada əsilli akademik Lou Marinoff bir müsahibəsində deyirdi: “Antik dünyada fəlsəfə həyatın və daha yaxşı yaşamağın bələdçisi idi. Fəlsəfi praktika həmin şeyi təkrar səhnəyə qaytarır. Beləliklə, bizə elə gəlir ki, biz çox qədim bir iş görürük, yeni tərzdə olsa da”.

Əslində, qədim dövrdə həm Şərqdə, həm də Qərbdə filosoflar hikməti müzakirələr və söhbətlər vasitəsilə axtarıb, cilalayıblar. Öz vətənlərində öyrəndikləri ilə kifayətlənməyənlər hətta uzaq ölkələrdəki ustadların da görüşlərinə gedər, onların müzakirələrinə qoşular, sonra bütün biliklərini öz xalqının milli təfəkkürünə uyğunlaşdırıb yeni bir hikmət təqdim edərmişlər. Buna nümunə kimi istər antik dövr yunan, istərsə də qədim hind və Çin filosoflarını göstərmək olar. Qısa desək, onlar həqiqəti söhbətlərdə, canlı ünsiyyətdə axtarıb tapıblar, çünki zaman-məkan fövqündə olan düşüncələr, ideyalar milliyyətindən, dinindən asılı olmadan hər insanın axtardığını ehtiva edir. Burada bütün dövrlər üçün keçərli olan əhəmiyyətli bir məqamı vurğulayaq: Filosofla söhbət, ünsiyyət zamanı iki istiqamətdə proses gedir-bir tərəfdən söhbət zamanı dinləyici ona lazım olan həqiqəti dərk edir, düzgün istiqaməti görür, digər tərəfdən filosof yeni təcrübələr vasitəsilə öz fəlsəfəsinə daha bir qat əlavə edə bilir.

## 23 il öncə...

2002-ci ildə UNESCO-nun təşəbbüsü ilə Dünya Fəlsəfə Günü təsis edilib. Həmin vaxtdan etibarən hər il noyabr ayının üçüncü cümə axşamı Dünya Fəlsəfə Günü kimi qeyd edilir. Bu gün təfəkkürün, müxtəlif mədəniyyətlərin və hər bir insanın inkişafı üçün fəlsəfənin əhəmiyyətini vurğulayır.

Azərbaycanda fəlsəfi fikrin inkişafını izləmək üçün keçmişin mühüm yazılı abidələri köməyimizə çatır. Avesta, pəhləvi mətnləri, qədim yunan filosofları və tarixçilərinin əsərləri, orta əsrlərin yazılı abidələri, ölkə ərazisindəki arxeoloji qazıntıların materialları, dil və şifahi ədəbiyyat tarixinin tədqiqi və s. araşdırmalar var. Ölkəmizdə fəlsəfi fikir tarixində İslam dininin müddəaları xüsusi yer tutur. Əbülhəsən Bəhmənyar, Əbuhəfs Sührəvərdi, Eynəlqüzat Miyanəci, Şihabəddin Sührəvərdi, Nizami Gəncəvi, Əfzələddin Xunəci, Siracəddin Urməvi, Nəsirəddin Tusi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Rəcəbəli Təbrizi, Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə və başqaları Azərbaycanda fəlsəfi fikrin inkişafında mühüm rol oynayıblar.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4936
Sifariş: 2329
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova